# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 21 (3534) Cümə axşamı / 13 iyun 2024-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## Qohum evliliyinə son?



**Humay Axundzadə,**
Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Ailə, gender, qayğı məsələləri üzrə tədqiqatçı

***Azərbaycanda qohum evliliklərin qadağan olunması gözlənilir. Qohum nikahlardan sağlamlığı məhdud uşaqların doğulması, bunun ailə və cəmiyyətdə doğurduğu problemlər ətrafında aparılan müzakirələr uzun illər formalaşan adət-ənənələrin fonunda birmənalı qarşılanmır. Belə qeydlər var ki, sağlam ailə və cəmiyyətin qurulmasında qohum nikahların təsiri varsa, bundan xilas yolu birbaşa ondan imtina hesab olunur. Bütövlükdə, əksər ailələr bu iddianı rədd edir, ta ki fiziki qüsurlu uşaqları dünyaya gələnə qədər...***

*Xəstə, qüsurlu nəsil yetişdirən bir ailənin qurulması nə dərəcədə doğrudur?*


Səh. 5


# İrəvanın sülh oyunu

***Azərbaycanın sülh müqaviləsinin imzalanması ilə bağlı ortaya qoyduğu mövqe İrəvanda Paşinyan hakimiyyətinin sülh prosesi ilə bağlı imitasiya addımlarını növbəti dəfə ifşa edib. İrəvan dəfələrlə Azərbaycanla ən qısa zamanda sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, proseslərin gedişi, əslində, Ermənistan hakimiyyətinin başqa niyyətlərinin olduğunu göstərir. Diqqət edək: Prezident İlham Əliyev iyunun 6-da TÜRKPA-ya üzv dövlətlərin parlament sədrləri ilə görüşündə bildirib ki, Azərbaycan Ermənistan tərəfinə Minsk qrupu ləğv edilməsi ilə bağlı ATƏT-ə birgə müraciət etməyi təkif edib.***



"Minsk qrupu 28 il, guya, Qarabağ problemini həll etməyə çalışırdı. Əslində isə bunu dondurmağa çalışırdı və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız parçasından başqa bir şey deyildi. Biz isə ona görə bu gün öz haqqımızı, ərazi bütövlüyümüzü döyüş meydanında, güc yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll etdik. Ancaq o da həqiqətdir, sənin gücün olmalıdır ki, öz haqqını müdafiə edə biləsən.

Ermənistan-Azərbaycan prosesi ilə bağlı onu deyə bilərəm ki, biz hesab edirik, bir neçə açıq olan məsələ hələ də qalmaqdadır. Onlardan biri Ermənistanın Konstitusiyasıdır ki, orada Azərbaycana qarşı ərazi iddiaları var. İkincisi, Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarına son qoyulmalıdır. Təbii ki, biz artıq bunu Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure - hüquqi cəhətdən ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir", - dövlət başçısı deyib.

Göründüyü kimi, dövlət başçısının açıqladığı bu məqamlar Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması istiqamətində yaradılan yeni reallığın şərtlərinə tamamilə uyğundur. Əgər sülh istəyirsənsə bu istiqamətdə ortaya çıxan və ya çıxa biləcək maneələri aradan qaldır.

İrəvan Bakının bu haqlı tələblərinə başqa don geyindirməyə çalışır. Ermənistan baş naziri Nikol Paşinyan son açıqlamalarında Konstitusiya dəyişikliyi məsələsinin ölkəsinin daxili işi olduğunu, bunun sülh sazişi ilə əlaqələndirilməsinin doğru olmadığını iddia edib. Halbuki Nikol Paşinyan bir müddət öncə özü etiraf edirdi ki, Konstitusiyadakı bəzi müddəalar sülh prosesinə əngəl yaradır. Bu "U" dönüşünün əsas səbəbini ekspertlər İrəvandakı daxili siyasi çaxnaşmalarla əlaqələndirsələr də, son iki gündə İrəvanın diplomatik təmasları başqa məqamların da olduğunu üzə çıxarır.

> *"Onlardan biri Ermənistanın Konstitusiyasıdır ki, orada Azərbaycana qarşı ərazi iddiaları var*



ABŞ dövlət katibinin köməkçisi Ceyms Obrayn İrəvana səfər edib və baş nazirlə görüşüb. Nə təsadüfdür ki, Paşinyanın son açıqlamaları elə bu görüşdən dərhal sonra bəyan edilib. İndi isə Obraynın mətbuata iki ölkə arasındakı sülh danışıqları ilə bağlı açıqlamalarına diqqət yetirək. "ABŞ Azərbaycanla Ermənistanı sülh razılaşmasını qarşıdakı həftələrdə, aylarda yekunlaşdırmağa cəsarətləndirir", - Obrayn "Azadlıq radiosu"na açıqlamasında deyib. Onun sözlərinə görə, Vaşinqton region xalqlarının uzunmüddətli sülh sazişi bağlamaq üçün qanuni istəyini dəstəkləyir: "Bizim fikrimizcə, Mərkəzi Asiyadan Aralıq dənizi istiqamətində ticarət dəhlizi inşa etmək üçün bir neçə nəsildən bir üzə çıxan fürsət yaranıb. Bu yalnız Azərbaycan və Ermənistan arasında sülh olduğu təqdirdə mümkün ola bilər. Bu, bütün dəhliz boyunca yeni sənaye istiqamətləri yaradacaq. Bu, indi baş verə bilər. Bir neçə il sonra, bu indiki qədər əhəmiyyətli olmaya bilər. Ona görə də indi bunu etməyin zamanıdır", - Obrayn əlavə edib.

Eyni fikirləri Paşinyan da deyir: "Sülh müqaviləsi imzalanana, eləcə də sərhədlərin delimitasiyasına qədər Azərbaycanla kommunikasiyaların açılması tamamilə mümkündür. Praktiki addımlarla real dünya formalaşdırmaq və daha sonra müqavilə imzalamaq tamamilə mümkündür. Lakin istənilən halda sülh müqaviləsi imzalanmalıdır".

Bu siyasi bəyanatlarda sülhə əngəl yaradan əsas maneə göstərilmir. Nədir bu əngəl? Ermənistan konstitusiyasında Müstəqillik Bəyannaməsi ilə bağlı fikir var və 1989-cu il 1 dekabr tarixli deklarasiyaya əsasən, Dağlıq Qarabağ vilayəti Ermənistana birləşdirilməlidir.


Səh. 4





GÜNÜN FOTOSU...



Ərdoğan CHP-nin Baş Qərargahında - Son 18 ildə ilk

GÜNÜN SİTATI

> *"Altı ay əvvəl Bakının COP29-a evsahibliyi etməsi barədə razılaşma iqlim dəyişikliyi ilə mübarizə və regionda sülhün əldə edilməsi sahəsində müsbət siqnal oldu"*



**Ferqus Auld,**
Böyük Britaniyanın Azərbaycandakı səfiri

KARİKATURA



Nəhənglərin savaşında ortada qalan Avropa

## Manatla bağlı beynəlxalq proqnoz

**Pərviz Heydərov,**
İqtisadçı ekspert

Nə qədər ki, neftimiz büdcədə müəyyən etdiyimiz fiksal qiymətdən baha satılır, bir o qədər manatın dəyəri sabit qalacaq.


Səh. 6


STATİSTİKA



**■ 2024-cü ilin yanvar-may ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda proqnoza nisbətdə 186,9 mln. manat və ya 8,9% artım qeydə alınıb.**

Bu barədə Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, büdcə təşkilatları üzrə daxilolma ötən ilin müvafiq dövrü ilə müqayisədə 24,3 mln. manat və ya 3,3%, qeyri-büdcə təşkilatları üzrə isə 198,2 mln. manat və ya 14,8% artımla olub.




Səh. 7


## Kreditlərlə bağlı yenilik

XƏBƏR LENTİ

# Sülhməramlılar Azərbaycan ərazisini tam tərk edib



**Vətən müharibəsindən sonra Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizin ərazisindən çıxarılması prosesi iyunun 12-də başa çatıb.**

Sülhməramlı kontingentin şəxsi heyəti, silah və texnikası ərazimizi tam tərk edib. Qeyd edək ki, apreldə Rusiya Prezidentinin sözçüsü Dmitri Peskov Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxarılmasını təsdiqləyib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə məlumatla əlaqədar bildirib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilmişdir. Proses başlanmışdır, Azərbaycan və Rusiya müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.

Xatırladaq ki, 19 aprel Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsində əlamətdar tarix oldu. İkitərəfli təmasların nəticələrinə əsasən, Ermənistan Qazaxın işğal edilmiş kəndlərini Azərbaycana qaytarmağa razılaşdı. Azərbaycanın hələ 2020-ci ildə delimitasiya prosesinin məhz Qazax rayonu ərazisindən başlamasına dair qaldırdığı məsələnin həlli Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti qələbəsi oldu.

# Rəsmi Bakıdan Fransaya çağırış



***Fransanın bəzi şəhərlərində polis zorakılığı və etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə edilməsi bizi narahat edir. Hafta.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi "X" hesabında məlumat yayıb.***

"Toplaşmaq və ifadə azadlığı hüququndan istifadə edən dinc etirazçılara qarşı həddindən artıq güc tətbiqi qəbuledilməzdir. Biz Fransa hökumətini təcili olaraq gərginliyi azaltmağa çağırırıq", - məlumatda qeyd olunub.

# Hakan Fidan Putin və Lavrovla Cənubi Qafqazı müzakirə edib



**Türkiyə xarici işlər naziri Hakan Fidan Rusiyaya səfəri çərçivəsində Prezident Vladimir Putin tərəfindən qəbul zamanı, eyni zamanda, rusiyalı həmkarı Sergey Lavrov və digər rəsmilərlə görüşlərdə Cənubi Qafqazdakı vəziyyəti müzakirə edib.**

Bu barədə, o, jurnalistlərin sualına cavabında bildirib. Hakan Fidan onu da qeyd edib ki, Türkiyə və Rusiya bir çox məsələlərdə, xüsusən Rusiya-Ukrayna müharibəsi, Suriya və Fələstindəki vəziyyətlə bağlı sıx təmaslar aparır.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan-Misir münasibətlərində yeni səhifə

***Azərbaycan ərəb dövlətləri, müsəlman dünyası ilə siyasi əlaqələrini inkişaf etdirir. Bu baxımdan, Prezident İlham Əliyevin Misirə rəsmi dövlət səfəri və orada keçirtdiyi qarşılıqlı ikitərəfli görüşlər mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, Azərbaycan-Misir əlaqələri bu gün sürətlə inkişaf edir.Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsində Misir Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ədalətli mövqeyini daim müdafiə edib.***



**■ Milli Məclisin deputatı Rauf Əliyevin sözlərinə görə, Prezident İlham Əliyevin Misir Respublikasına rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açacaq.**

Səfərin əsas məqsədi Azərbaycanla Misir arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. Ölkələrimiz arasında olan yüksək münasibətlər dərin tarixi-mədəni bağlılığı gücləndirir. Səfər çərçivəsi zamanı imzalanacaq sənədlər ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi üçün hüquqi bazanı daha da möhkəmləndirəcək:

"Cari ilin 8 iyun tarixində Qahirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mətbuata bəyanatlarla çıxış edərək bildirmişdir ki, "Bu səfər Misir-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Keçən il biz Prezident əs-Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni, bu onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır. Biz razılaşdıq ki, bu siyasi dialoq bundan sonra da davam etdirilsin. Mən Prezident əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət etdim və şadam ki, mənim dəvətim qəbul edilmişdir. Eyni zamanda, bildirdim ki, Misirin COP27 sədrliyi və ev sahibliyi böyük uğurlarla nəticələndi. Bu münasibətlə həmkarımı təbrik etdim və eyni zamanda, Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdim və bizim nümayəndələrimiz daim təmasdadırlar. Beynəlxalq məsələlərin müzakirəsi zamanı aydın oldu ki, fikir ayrılığımız yoxdur. Bütün beynəlxalq məsələlərdə bizim fikrimiz üst-üstə düşür. Əslində, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal çalışırıq, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq edirik, İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində birgə səylər göstəririk. Bildiyiniz kimi, Misirin dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişdir. Bu sədrliyin nəticəsində Hərəkat daha böyük imkanlara malik olmuşdur". Qeyd etmək lazımdır ki, Azərbaycanla Misir arasında əlaqələr qədim tarixi köklərə bağlıdır. Hələ Azərbaycan SSRİ tərkibində olan vaxtlarda Misirlə yaxın dostluq əlaqələri mövcud olub. Ölkəmiz müstəqillik əldə etdikdən sonra da bu dostluq əlaqələri güclənmiş və son zamanlar daha da dərinləşmişdir. Azərbaycanla Misir münasibətləri özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bakı və Qahirə arasında inten□sivləşən əlaqələr, imzalanan sənədlər hər iki xalqın maraqlarına cavab verir. Ölkə başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın sürətlə genişləndi□rilməsi baxımından ölkələrimiz üçün yeni imkanlar yaradır və ölkələrimiz arasında münasibətlərin inki□şafı üçün böyük potensialın olmasından xəbər verir. Bu baxımdan, cənab İlham Əliyevin Misirə rəsmi səfəri ölkələrimiz arasında əmək□daşlığın daha da dərinləşdirilməsinə yeni töhfələr verəcək. Ölkələrimiz arasında olan əməkdaşlıq dünyada islamofobiya meyillərinin gücləndiyi dövrdə xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz beynəlxalq miqyasda özünü göstərən dini, irqi ayrı-seçkilik kimi zərərli tenden□siyalara qarşı fəal mübarizə aparır. Belə olduğu halda İslam həmrəyliyi prinsipini rəhbər tutan Azərbaycan bu baxımdan ərəb dövlətləri ilə həm ikitərəfli eyni zamanda İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Millətlər Təşki□latı və başqa beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsində maraqlıdır. Azərbaycanın ərəb dövlətləri ilə əlaqələrində hər zaman Misirlə münasibətləri xüsusi əhəmiyyət daşıyır.

> *"Ölkələrimiz arasında olan yüksək münasibətlər dərin tarixi-mədəni bağlılığı gücləndirir*

"İkitərəfli münasibətlərin tarixi haqqında danışırıqsa, qeyd etməliyəm ki, ulu öndər Heydər Əliyevin 1994-cü ildə Misirə səfəri dövlətlərimiz arasında daha sonralar hərtərəfli inkişaf üçün sabit zəmin formalaşdırdı. Günümüzdə isə Azərbaycan və Misir prezidentlərinin ölkələrarası qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin inkişafında dönüş nöqtəsi oldu. Azərbaycanla Misir İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında və digər beynəlxalq formatlarda sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq isə hər iki platformada iqtisadi, siyasi və humanitar sahədə təşkilatın özü üçün daha faydalı, geniş fəaliyyət imkanları formalaşdırır".

**■ Bu fikirləri isə Mətbuat Şurası İdarə Heyətinin üzvü, politoloq Yeganə Hacıyeva söyləyib. O bildirib ki, Misir 100 milyondan artıq əhalisi olan güclü bazar iqtisadiyyatına və strateji coğrafi mövqeyə malik böyük İslam dövlətidir.**

Son illərin təcrübəsi göstərir ki, modern müsəlman dövləti nümunəsi kimi, Azərbaycan BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər platformalar çərçivəsində fəaliyyəti ilə müasir və uğurlu İslam adət-ənənəsinə malik dövlətçilik nümunəsi yaratmaqla, çağdaş dövrdə daşlaşmış trendlərdən olan anti-İslam hücumlarının önündə dayanan ölkədir. Müxtəlif regionlarda resursların ələ keçirilməsi məqsədilə "İslamın terrorizmlə eyniləşdirilməsi" təbliğatını xarici siyasətinin əsas vektoru elan etmiş ölkələrin beynəlxalq təşkilatlarda Azərbaycana qarşı hücumları hər il daha da artmaqdadır. Məhz bu səbəbdən Azərbaycan ilə Misirin beynəlxalq səviyyədə qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığı bütün dünyada İslam həmrəyliyinin güclənməsinə əvəzsiz töhfə verir.

"Prezident İlham Əliyevin Misirə səfəri çərçivəsində "əl-Əzhər" Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd əl-Tayyib ilə görüşü Azərbaycanla Misir arasında dini-mənəvi sahədə əməkdaşlığın nümayişidir. Misir və Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə və inkişafına mühüm töhfə verirlər. Hər iki ölkə arasında münasibətlərin inkişafı üçün iqtisadi-ticarət əlaqələrin formalaşması və irəlilədilməsi sabit zəmin rolunu oynaya bilər. Bu üzdən də səfər çərçivəsində ikitərəfli əməkdaşlığın enerji, kənd təsərrüfatı, əczaçılıq, sənayenin müxtəlif istiqamətləri, nəqliyyat və sair sahələrdə inkişafı üçün müzakirə olunan məsələlər ölkələr arasındakı mövcud və perspektiv inkişaf vektorlarını müəyyənləşdirmək üçün yeni imkan kimi dəyərləndirilir. Strateji coğrafi mövqeyə malik Misir Afrika, Yaxın Şərq və digər regionlara əlverişli çıxış imkanları olan ölkədir. Bu, həm də Azərbaycan üçün regionlararası iqtisadi-ticari və digər sahələrdə əməkdaşlıq üçün önəmli amildir.

Azərbaycan Qoşulmama Hərəkatında iki dönəm sədrliyi müddətində İslam dünyasının diqqətində olan məsələlərə böyük önəm verib. Ölkəmiz Fələstin məsələsində ədalətli və prinsipial "1967-ci il

> *"Strateji coğrafi mövqeyə malik Misir Afrika, Yaxın Şərq və digər regionlara əlverişli çıxış imkanları olan ölkədir*

sərhədləri şərqi əl-Qüds paytaxt olmaqla iki dövlət prinsipi" əsasında həllinin tərəfdarıdır. O səbəbdən də Azərbaycanın Ərəb-İslam dünyasının mərkəzlərindən biri olan Misirdə bu prinsipial mövqeyini səsləndirməsinin əlahiddə əhəmiyyəti var. İslam dünyasında Azərbaycanın artan nüfuzundan narahat olan, qıcıqlanan ölkələrin bizə qarşı regional və lokal səviyyədə apardığı təbliğatın elementləri bəzi əsassız iddialar üzərində qurulub", - deyə Y. Hacıyeva vurğulayıb.

Politoloq qeyd edib ki, Azərbaycanın xarici siyasəti dünyada bütün istiqamətlər üzrə əməkdaşlığın inkişafına yönəlmiş prinsiplər üzərində qurulub. Bu yanaşmanın memarı kimi, Prezident İlham Əliyev beynəlxalq platformalarda fəaliyyəti çərçivəsində dinindən, irqindən, milliyyətindən asılı olmayaraq, bütün ölkələrlə və xalqlarla azad, firavan həyata töhfə verəcək siyasətin müdafiəçisi rolunda çıxış edir. Bütün dünyada sülhün və sabitliyin tərəfdarı olan Azərbaycan istər ABŞ, istər Rusiya, istər region dövlətləri, istərsə də İran, Mərkəzi Asiya, Yaxın Şərq və Avropa İttifaqı ölkələri ilə əlaqələrini inkişaf etdirir. Prezident İlham Əliyevin Misirə səfəri, həm də Azərbaycanın Ərəb dünyası ilə əlaqələrinin yüksək səviyyədə olduğunun göstəricisidir.

*✍ Ləman Əliyeva*

# Makron Avropanı fəlakətə sürükləyir

***Keçən həftəsonu Avropa Parlamentinə keçirilən seçkilər köhnə qitədə bir çox dövlətlərdə siyasi təlatüm yaradıb - xüsusilə də Avropa İttifaqının iki aparıcı üzvü olan Almaniya və Fransada. Belə ki, Avropa Parlamentinə keçirilən seçkilər sağ və millətçi siyasi qüvvələrin böyük üstünlüyü ilə başa çatıb. Bu tendensiya bütün qitə dövlətlərində müşahidə edilib desək, yanılmarıq. Əslində, Makron Fransasında hazırkı prezidentin İntibah Partiyasının məğlub olacağı proqnozlaşdırılırdı. Sonluq Emmanul Makron üçün gözləniləndən də pis olub.***

Belə ki, yekun nəticələr Fransa Prezidentini ölkə parlamentinin aşağı palatası - Milli Assambleyanı buraxaraq yenildən parlament seçkiləri keçirmək qərarını verməyə məcbur edib. Parlament seçkilərinin birinci turu iyunun 30-da, ikinci turu isə iyulun 7-də keçiriləcək.

Əslində, Makronun yarıtmaz addımları nəticəsinzə üzləşdiyi siyasi uğursuzluqları onu istər Fransa, istərsə də Avropa səviyyəsində nüfuzsuz siyasi liderə çevirmişdi. Bu baxımdan, onun prezidentlikdən istefa verə biləcəyi də gözlənilirdi. Makron inadla 2027-ci ilə qədər prezident postundan əl çəkməyəcəyini açıqlayaraq, seçicilərin demokratik və haqlı tələblərini ayaqlar altına alıb. Bununla belə, ekspertlər erkən parlament seçkilərinin də onun üçün riskli olacağı və partiyasının daha da çox səs itirəcəyi qənaətindədirlər.

Təbii ki, Avropa Parlamentinin əvvəlki tərkibi korrupsiya, rüşvətxorluq, siyasi şantaj kimi bədnam proseslərlə ad çıxarmışdı. Əslində, bu proseslərin əsas hərəkətverici qüvvəsinin Makron Fransası olduğu heç kimə sirr deyildi. İndi sual olunur: yeni tərkibdə formalaşacaq Avropa Parlamenti bu qara ləkələri üzərindən silib ata biləcəkmi? Təəssüf ki, görünən mənzərə bu istiqamətdə pessimizmi gücləndirir. Səbəb isə sadədir.



Avropada digər bölgələrə qarşı siyasi baxış və sərgilənən mövqe dəyişməz olaraq qalır. Avropa Parlamentinə keçirilən seçkilərin nəticələri isə daha çox qitədaxili siyasi proseslərlə bağlıdır. Yeni Avropa rəhbərliyinin Ukrayna müharibəsi fonunda qəbul etdiyi qərarların sadə avropalıların həyat tərzinə ciddi təsir göstərməsi mövcud siyasi elitaları nüfuzdan salıb. Bu səbəbdən, onlar bu seçkilər vasitəsilə Avropa qurumlarının diqqəti daha çox daxili problemlərin həllinə yönəltməli olduqlarının mesajını veriblər. Makron və digərlərinin nəyin bahasına olursa-olsun hələ bir müddət öz kreslolarını təhvil vermək istəməmələri Azərbaycan da daxil müstəqil siyasət yürüdən dövlətlərə qarşı Avropa Parlamentinin bir alət olaraq qalacağı təəssüratını yaradır.

**Qayıdaq Fransaya. Qeyd etdiyimiz kimi, Makron hökuməti hazırda düşdüyü siyasi böhrandan çıxış yollarını axtarır. Sağçıların düşərgəsində isə bayram əhval-ruhiyyəsi hiss edilir. Bir çoxları Makron partiyasının uduzmasını sağçıların yeni liderinin kimliyi ilə əlaqələndirirlər.** Bu, seçkilərdə sağları təmsil edən Marin Le Penin "Milli Birlik" Partiyasının yeni sədri Jordan Bardelladır. Əslində, Bardellarının siyasi portretinə diqqət yetirdikdə Avropa cəmiyyətinin siyasi liderləri müəyyənləşdirmək istiqamətində nə dərəcədə deqradasiyaya uğradıqlarının şahidi olarıq. Siyasətçidən daha çox "Tik-Tok ulduzu" kimi ad çıxarmış 28 yaşlı Bardella sələfi Mari Le Pendən fərqli olaraq özünü siyasət aləmindən uzaqlaşmış kimi göstərərək publikaya oynamağı çox sevir. Təsadüfi deyil ki, hazırda Fransada, xüsusən də "Z" nəsli arasında ən populyar siyasətçilərdən biridir. "Politico"nun yazdığı kimi, üç ildən az müddətdə onun "TikTok"da abunəçilərinin sayı bir milyonu ötüb. 2023-cü ildə JDD jurnalına salınan 50 ən populyar siyasətçi arasında tək fransız olub. Nəşr qeyd edir ki, "İfrat sağçı lider siyasətdən qaçaraq sosial media ulduzuna çevrilib". Çoxsaylı videolarda Bardella barlarda içki içir, viral musiqi tendensiyalarından istifadə edir, Fransa qəzetləri "Superulduz Bardella", "Sağların rebrendinqi" və ya "parlaq populizm" kimi başlıqlarla məqalələr dərc edirlər. Bütün bunlar kifayət qədər gənc siyasətçini "zumerlərin sevimlisi"nə çevirib (Report).

"Ipsos" Araşdırma Mərkəzinin mart ayında dərc etdiyi hesabatında 18-24 yaşlı Fransa sakinləri arasında onun populyarlığı 31% təşkil edib. Müqayisə üçün qeyd edək ki, prezident Emmanuel Makronun "İntibah" Partiyası bu yaş kateqoriyasında cəmi 4%-ə malikdir. Bardella yaşlı nəsil arasında da məşhurdur: onu 50-59 yaşlı fransızların 40%-i və 60-69 yaşlıların 31%-i dəstəkləyir. Televiziya debatları zamanı Bardella Aİ-ni bitirmək istəməkdə günahlandırılıb. O, "Mən Avropanın əleyhinə deyiləm, Avropanın işinin əleyhinəyəm", - deyib.

**Fransa tarixində ilk dəfə olaraq hakimiyyəti təmsil edən siyasi partiya 15 faizdən aşağı səslə məğlub olub. Göründüyü kimi, hazırda Avropa İttifaqında mərkəzdənqaçma meyilləri güclənir. Kollektiv birgəyaşayış anlayışı öz yerini Bardella kimi Avropa İttifaqını dağıtmaq istəyənlərə verir.**

Bunun əsas səbəblərindən biri, təbii ki, Makron kimi yarıtmaz siyasətçilərin uzağı görə bilməməsi, eyforiyaya qapılıb real siyasətdən uzaqlaşması və əsrlər boyu təfəkkürlərində kök salmış kolonial siyasət düşüncəsindən azad ola bilməmələridir. Nəticə isə ortadadır. Avropa Parlamentinə seçkilər köhnə qitənin başının üstünü qara buludlarının aldığının xəbərçisidir. Əgər müstəqil siyasət yürüdən ölkələrlə bərabər səviyyəli, qarşılıqlı maraqların nəzərə alınması və Cənubi Qafqaz da daxil, yaradılan yeni reallıqları qəbul etməsə, özünün yanaşmalarında korrektələrə yol verməsə, Avropa Qərblə-Şərqdə yerləşən iki siyasi güc mərkəzinin oyuncağına çevrilmək təhlükəsindən qurtula bilməyəcək.

*✍ Ləman Əliyeva*

# Sülh istəyən iddiasından əl çəksin

***R**egion mühüm hadisələrə şahidlik etməkdədir. Bölgə üzərində öz gücünü və zəfərini təmin etmək istəyən Avropa, Qərb, Rusiya savaşı bitmək bilmir. Proseslərə Cənubi Qafqaz və digər dövlətlərin, sadəcə seyrçi qalması mümkünsüzdür. Bölgə istər-istəməz özünün təhlükəsizliyini təmin etmək üçün yeni müttəfiqlər tapıb, mühüm addımlar atmağa məhkumdur. Bu və ya digər məsələlərlə bağlı müsahibimiz politoloq Natiq Miridir:*

## Müsahib



Natiq Miri,
politoloq

***- Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümüdür. Bəyannamə bugünün qlobal gərginliyi fonunda regionun təhlükəsizliyi və perspektiv üçün əhəmiyyətliliyini hansı dərəcədə ortaya qoyur?***

- Qardaş Türkiyə ilə Azərbaycan arasında Şuşada imzalanan Bəyannamə regionda və Qarabağda gözü olanlara "dur" nöqtəsidir. Ən ciddi təhlükəsizlik çətiri kimi, həm də geosiyasi çəkindirici məqamdır. Qardaş Türkiyə təkcə regional deyil, qlobal səviyyədə də hər kəsin nəzərə almağa məcbur olduğu bir güc mərkəzidir. Türkiyə getdikcə təkbaşına deyil, özü-özünə yetərli olan bir dövlətə çevrilir. Bu da ən azından, hərbi sahədə Türkiyəyə təzyiq mexanizmlərini minimuma endirir. Bu, çox önəmlidir. Ona görə də Şuşa Bəyannaməsinin əhəmiyyətini doğru-dürüst anlamaq lazımdır.

Bundan irəli gələn bir çox məsələ var. Bu, sadəcə, Türkiyə-Azərbaycan arasında bir müttəfiqlik bəyannaməsi deyil, eyni zamanda, gələcəkdə əhəmiyyətli güc mərkəzlərinə çevriləcək türk birliyinə nümunədir. Düşünürəm, bu istiqamətdə ciddi siyasət aparılır və bu yöndə inteqrasiyanı daha da gücləndirmək doğru olardı. Yaxın zaman çərçivəsində çevik, peşəkar türk dövlətləri birliyinin qoşun növü yaradılmalıdır. İlkin olaraq bu, minimal 20 min nəfərlik sayda ola bilər. Bu say gələcək perspektivdə peşəkarların hesabına artırıla bilər.

Bu çevik güc istənilən türk coğrafiyasında baş verən müdaxilə və fövqəladə hadisələrə qarşı duracaq. Bu isə vəziyyəti aradan qaldıra biləcək gücdə və təchizatda olmalıdır. Buna bütün türk cümhuriyyətlərinin ehtiyacı var və düşünürəm, bu yöndə işlər gedir. Sadəcə, bunu bir qədər sürətləndirməyə ehtiyac var. Təbii ki, paralel olaraq dil, ticari, iqtisadi birlik və digər infrastrukturların birgə istifadəsi, gömrük və digər məsələlərlə bağlı işləri sürətlə aparmaq lazımdır. Ona görə də Şuşa Bəyannaməsi şəklinə daha böyük mənzərədən baxmağa ehtiyac var.

***- Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi növbəti Zirvə görüşü nəzərdə tutulur. Bu, hansı hazırlıqlarla bağlıdır? Oradan Zəngəzur, dəhliz məsələsi necə görünür?***

- Türk Dövlətləri Təşkilatının keçirdiyi hər bir görüş, istər Şuşada olsun, istərsə də başqa türk dövlətlərinin birində, bu, bütün hallarda inteqrasiyanı daha da sürətləndirir.

Bununla yanaşı, dövlətlər bir-birindən müəyyən mənada müsbət anlamda nümunələr götürürlər. Eyni zamanda, bu, qarşılıqlı etimadı da gücləndirir ki, bu da çox vacib amildir. Qarşılıqlı etimad, birgə qayə olduğu təqdirdə, gerisi təfərrüat olur. Ona görə də ilkin olaraq, ideoloji maraqları birləşdirmək lazımdır ki, bütün fəaliyyət buna yönəlik aparılsın. Bu mənada, növbəti Şuşa görüşünü təkcə Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələyə yönəltsək, bu, Türk Dövlətləri Təşkilatının hədəflərini zəiflətmək olardı.

Türk dövlətləri bir olduğu təqdirdə, nəinki Zəngəzur, bütün problemlər avtomatik həll olunacaq. Dünyanın böyük dövlətləri bizimlə hesablaşmaq məcburiyyətində qalacaqlar. Nəzərə alın ki, bu coğrafiya Anadolunu - dünyanın mərkəzini, eyni zamanda, Cənubi Qafqazı və Mərkəzi Asiyanı ehtiva edir. Bu, dünyanın döyünən ürəyi olan bir coğrafiyadır - Avrasiyadır. Avrasiyada kim güc olacaqsa, dünyaya da bu güc mərkəzi hökm edəcək. Ona görə də Zəngəzur dəhlizinə bu yandan baxmaq lazımdır. Məsələyə bu kontekstdən yanaşanda Zəngəzur çox kiçik bir məsələ kimi görünür.

*Qardaş Türkiyə ilə Azərbaycan arasında Şuşada imzalanan Bəyannamə regionda və Qarabağda gözü olanlara "dur" nöqtəsidir*

*İki qardaş ölkə Prezidentləri arasında keçirilən Ankara görüşü regionda baş verən proseslərlə əlaqəlidir*

*Əgər Ermənistan konstitusiya şəklində ərazi iddiasını təsbit edibsə, imza atdıqları sülh sənədi yalnız tullantı üçün yararlıdır*

***- İki türk qardaş ölkənin başçıları həftənin ilk günündə Ankarada görüşdülər. Orada regionun gələcəyi ilə bağlı, şübhəsiz, bir çox məsələlər müzakirə olunub. Hansı addımların atılacağı gözlənilir?***

- İki qardaş ölkə Prezidentləri arasında keçirilən Ankara görüşü regionda baş verən proseslərlə əlaqəlidir. İstər Türkiyə ətrafında, istər Cənubi Qafqazda, Azərbaycanda, eyni zamanda, Ermənistan-Azərbaycan arasında sülh kontekstində baş verən hadisələrlə bağlıdır. Bütün bu həssas məsələləri müzakirə etmək üçün görüşməyə ehtiyac yaranıb. Azərbaycan Prezidenti iyunun 11-də Ankaraya səfər etdi. Bir çox həyati məsələlər var ki, bunlar iki qardaş dövlət rəhbəri arasında koordinasiya olunur. Vacib olan budur. Qarşılıqlı məlumatlar verilir, analiz olunur və birgə qərarlar qəbul edilir. İstər Ermənistan-Azərbaycan sülh məsələsi, istər Zəngəzur dəhlizinin açılması, istər Ukrayna-Rusiya müharibəsi kontekstində Rusiya-Qərb qarşıdurması, Cənubi Qafqaza Qərbin, Rusiyanın müdaxiləsi və Cənubi Qafqazı çatışma mərkəzinə çevirmək istəkləri, paralel olaraq, İran amili və s. bütün bunların hamısı müzakirə predmetidir. Bilirsiniz ki, Suriyanın şimalında bir terror dövləti yaratmaq planı ortaya çıxıb. Suriyanın şimalındakı terrorçular Amerikanın nümayəndəsi Mak Kurkun vasitəsilə bir seçki oyunu keçirmək istəyirdilər. Sonradan bunu legitimləşdirməklə muxtariyyət səviyyəsinə qaldırıb, müstəqil dövlət kimi təqdim etsinlər

Bütün kompleks məsələlər iki dövlət arasında müzakirə predmeti olub və bu, o qədər vacibdir ki, Azərbaycan Prezidenti təcili surətdə Ankaraya səfər edib. Digər məsələlərin də koordinasiya olunub, həll edilməsi üçün Prezidentin köməkçisi səviyyəsində Türkiyənin vitse-prezidenti ilə görüş təşkil olundu və xarici işlər naziri Ceyhun Bayramov telefonla Hakan Fidanla danışdı. Deməli, bütün əhatəli məsələlərin hamısı müzakirə predmeti olub və bu məsələlərin hər biri iki qardaş ölkə üçün olmazsa-olmazdır.

***- Qərb Cənubi Qafqazda qurduğu oyunlarla Rusiyanı regiondan nə dərəcədə uzaqlaşdıra bilib?***

- Hələlik, Rusiyanın Cənubi Qafqazdan uzaqlaşdırılması siyasəti Qərbin xeyrinə həll olunmayıb. Ortada ram edilməyən Azərbaycan var. Başqa bir tərəfdən, Ermənistan vasitəsilə Rusiyanı sıxışdırmaq istəyirlər ki, bu yöndə müəyyən dərəcədə Ermənistan-Rusiya münasibətlərinə xələl gəlib. Ermənistan Rusiyanın nüvəsi olduğu təşkilatlarla əlaqəni, demək olar ki, kəsib.

Ermənistan özünü Rusiyanın təhlükəsizlik çətiri altında görmür və bunu açıq bəyan edir. Başqa bir tərəfdən, Avropanın Cənubi Qafqaza giriş qapısı olan Gürcüstan faktı var. Bütün Qərbin təzyiqlərinə rəğmən, Gürcüstanla bağlı Rusiyanın qəbul etdiyi casusluq haqqında qanun qəbul olundu.

Dolayısı, Gürcüstanı tamamilə ram etmək istəyən Qərb, əslində, Rusiya qarşısında 1:0 geridə qalır. Qanun qəbul olundu və bu kontekstdə Qərb Gürcüstana sanksiyalar tətbiq etmək istəyir. Ona görə də Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb-çıxarmaq o qədər də asan olmayacaq. Bunun üçün Azərbaycanın da maraqlarını təmin etmək lazımdır. Çox təəssüf ki, 44 günlük savaş, 1 günlük antiterror əməliyyatları da daxil olmaqla, bütün proseslərdə Qərb dünyası anti-Azərbaycan mövqeyi ilə fərqləndi. Ona görə də Azərbaycan xarici oyunçuların bu regionu mübarizə çəkişməsinə çevirməsində maraqlı deyil. Qərbin regionla bağlı istədiyi layihələr, hələ ki, alınmayıb. Ermənistan vurnuxur, amma Rusiyanın nüvəsi olduğu heç bir təşkilatdan çıxa bilməyib. Ermənistanın iqtisadi, ticari, enerji və digər məsələlərlə bağlı ciddi asılılığı var.

Bunu əvəzləyə biləcək alternativlər yaradılmayıb, yaxın zaman çərçivəsində də bu, mümkün görünmür.

***- Ermənistanın xarici işlər naziri amerikalı diplomatlarla görüşündə sülh müqaviləsindən danışıb. ABŞ-nin bu prosesdəki rolu, mövqeyi necədir?***

- O`Braynla Mirzoyanın görüşü, əsasən, strateji dialoqla bağlıdır. Təbii ki, Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub. Burada Mirzoyanın bəyan etdiyi kimi, sülh müqaviləsinin imzalanması üçün tarixi bir imkan mövcuddur. Ermənistan bu imkandan yararlanaraq, sülh müqaviləsini imzalamaq istədiyini bəyan edib. Əminəm ki, Braynla görüşdə Azərbaycan Prezidentinin son iki şərtini də vurğulayıb. ABŞ delimitasiya, demarkasiya prosesinin yalnız Almatı bəyannaməsi çərçivəsində, konstitusiya dəyişikliyi və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı şərtlərin olmadığı şəraitdə bağlanmasını istəyir. Ermənistan da bunu istəyir. Azərbaycana isə təminatlar lazımdır. Hüquqi təminatlar olmadan bu, mümkün deyil. Əgər Ermənistan konstitusiya şəklində ərazi iddiasını təsbit edibsə, imza atdıqları sülh sənədi yalnız tullantı üçün yararlıdır. Ona görə də ABŞ-nin, Ermənistanın və yaxud kimin olursa-olsun istəklərinə rəğmən, Azərbayacan özü üçün bütün təminatlarını almadan sülh müqaviləsini imzalamayacaq. Sülh istəyən buyursun, konstitusiyasındakı ərazi iddiasını dəyişdirsin.

***✍ Tahirə Qafarlı***



Qurtuluş günü

***Müstəqilliyi qoruyub saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifə idi***

***Heydər Əliyev***

# 15 İyun - yeni dövrün başlanğıcı

***15** iyun Azərbaycan xalqının, dövlətinin tarixinində müstəsna əhəmiyyətə malik ən önəmli günlərdən biridir. Ulu öndər Heydər Əliyevin xalqın çağırışına səs verərək, Qurtuluş missiyasını üzərinə götürdüyü gündür. Bu tarix müstəqillik yolumuzun bir dönüm anıdır. Dövlətinin, xalqının ən çətin məqamında onun imdadına yetişən Heydər Əliyev gərgin fəaliyyəti, uzaqgörən siyasəti, dəmir iradəsi və zəngin təcrübəsi ilə xilaskar missiyasının layiqincə yerinə yetirən lider olduğunu hər kəsə bir daha göstərmiş oldu.*

Xalqını vətəndaş müharibəsi təhdidindən, qardaş qırğınından, dövlətini isə parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etməklə görkəmli dövlət xadimi kimi ümidsizlik içində boğulan, sabaha inamı sönən xalqının ona olan ümidlərini doğrultdu.

Müstəqil Azərbaycanın əsasını yenidən qoydu. "Ömrümün qalan hissəsini xalqıma həsr edirəm", - deyən Ümummilli Lider Heydər Əliyev öz fitri istedadı, dərin zəkası, bilik və bacarığı ilə dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmağı bacardı.

Ümummilli Lider müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi öz əlləri ilə yazdı.

Ümummilli Liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi. Ümummilli Liderin müdrikliyi və qətiyyəti sayəsində Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı, problemlər mərhələlərlə həll olundu, siyasi sabitlik yarandı.

İlk dəfə Ümummilli Lider tərəfindən Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strateqiyası elan olundu və sonrakı illərdə uğurla həyata keçirildi. Həmin vaxtdan başlayaraq müstəqil Azərbaycan dövləti anarxiyadan sabitliyə, inkişafa doğru istiqamət götürdü, qısa vaxtda ölkədə sabitlik və əmin-amanlıq bərpa edildi, Azərbaycanın tarixində yeni dövrün - faktiki müstəqilliyin, demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Onu zamanının digər dövlət xadimlərindən fərqləndirən ən başlıca xüsusiyyət Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılığı idi. Məhz bu xüsusiyyətlər hələ sağlığında onu xalqının nəzərində Ulu Öndər, Ümummilli Lider səviyyəsinə qaldırdı.

15 iyun Qurtuluş Günü ərəfəsində yaşananlar və yaşadıqlarımıza nəzər saldıqda Azərbaycanın müasir tarixinin iki fundamental əsasını qeyd edə bilərik. Əgər birinci fundamental əsas dövlətimizin müstəqilliyini yenidən bərpa etməsidirsə, ikincisi Ümummilli Lider Heydər Əliyevin tarixi qayıdışı və Onun Azərbaycana bəxş etdiyi Milli Qurtuluş Günüdür. Sirr deyil ki, bu gün hər bir Azərbaycan vətəndaşı həyatlarını, ölkəmizin bugünkü firavanlığını və gələcəklə bağlı aydın görünən perspektivlərini Milli Qurtuluş Günü, Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirirlər. Azərbaycanın müasir tarixində, hər bir vətəndaşın həyatında baş verən müsbət dəyişikliklər, ilk növbədə, Heydər Əliyevin möhtəşəm qayıdışı və bu qayıdışın yaratdığı Qurtuluş məfkurəsi ilə birbaşa bağlıdır. Ümumilikdə, 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf, tərəqqi dövrü kimi yazıldı. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyi, sarsılmazlığı təmin edildi.

Milli Qurtuluş Günü Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Qurtuluş Günü həm də Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin başlanğıcıdır. Məhz Ulu Öndərin birbaşa rəhbərliyi ilə müasir Azərbaycanın qanunvericilik bazası təkmilləşdirildi. Müstəqil dövlət kimi ilk Konstitusiyamız qəbul olundu. Məhkəmə-hüquq sistemi yenidən quruldu, bu sahədə dərin islahatlara start verildi. Ulu Öndərin həyat və fəaliyyətində daim diqqət yetirdiyi, hamıdan tələb etdiyi qanun və hüququn aliliyinin təmin olunması prinsipi Ədliyyə orqanlarında çalışanların da əsas şüarına çevrildi. Məhz Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilib, nazirliyin səlahiyyətləri genişlənib, cəmiyyətdə nüfuzu artıb.

Ulu Öndərin ədliyyə sahəsində apardığı məqsədyönlü siyasətin nəticəsi olaraq, 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi təsis edilib. Bu gün ədliyyə işçiləri Ulu Öndərin əsasını qoyduğu yolda onun rəşhbər tutduğu prinsipləri də rəhbər tutaraq müstəqilliyimizin təmini, dövlətimizin daha da güclənməsi istiqamətində fəaliyyət göstərirlər.

Bu gün biz Ulu Öndərin arzuladığı, görmək istədiyi Azərbaycanda yaşayırıq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Şanlı rdumuz 44 gün və 23 saat ərzində ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etdi, sərhədlərimizi bütövləşdirdi. Ali Baş Komandan ata vəsiyyətini yerinə yetirərək Şuşamızda, Laçınımızda, Ağdamımızda və daha neçə-neçə işğaldan azad edilmiş doğma yurdlarımızda Azərbaycan bayrağını qaldırdı. Bu bayraq bir daha enməmək üzrə Ümummilli Liderin səmamızda dolaşan ruşunu qürurla salamlayır, dalğalanır. İndi biz bu torpaqlarda yenidən qururuq, yaradırıq, yaşadırıq. Ulu Öndərin əsasını qoyduğu, Qurtuluşla başlayan müstəqillik, Zəfər yolumuzda inamla günəşli sabaha doğru əmin addımlarla irəliləyirik. Ulu Öndər Azərbaycan xalqının yaddaşında və qəlbində daim yaşayacaq, məhəbbətlə, sevgiylə anılacaq, dərin ehtiramla xatırlanacaq. Qurtuluş bayramımız mübarək!

***✍ Nəcəfli Polad,***
***Göyçay rayonunun notariusu***

# Milli İnsan Hüquqları Günü

## Layihə

***İnsan hüquqlarının müdafiəsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindəndir. Elə bu səbəbdəndir ki, 18 iyun Azərbaycanda Milli İnsan Hüquqları Günü kimi qeyd olunur. Prezident İlham Əliyevin 2007-ci il 17 iyun tarixli Fərmanı ilə Ulu Öndər Heydər Əliyevin 1998-ci ildə ölkəmizdə ilk "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq etdiyi və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi tarix Azərbaycanda İnsan Hüquqları Günü elan edilib.***



Qeyd edək ki, müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilən Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquqlarının və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarıb. Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri edib.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılmasıdır. İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən Ulu Öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı, habelə 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi.

2001-ci il dekabrın 28-də isə Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul edib. Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılıb. 2002-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun tətbiq edilməsi barədə Fərman imzalayıb. 2002-ci il iyulun 2-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununun tətbiqi ilə əlaqədar bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Qanun qəbul olunub. Bu islahatlar dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarının qorunması işi bu gün də təkmilləşdirilir, bu sahədə məqsədyönlü tədbirlərin həyata keçirilməsi uğurla davam etdirilir. Azərbaycanda müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" Sərəncamda Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilib.

Azərbaycanda aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaradıb, bu müddət ərzində ölkəmiz bir çox hüquqi aktlara qoşulub. BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" Memorandum imzalanıb. 2012-ci ilin dekabrında təsdiq olunmuş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da insan hüquqlarının səmərəli qorunması üçün yeni imkanlar açır.

Son illər ölkəmizdə bütün sahələrdə həyata keçirilən əsaslı islahatlar insan hüquq və azadlıqlarının etibarlı şəkildə təmin olunması mexanizmlərinin daha da təkmilləşdirilməsini təmin edib. Xüsusilə Azərbaycan Respublikasının 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı, eləcə də bu sahədə imzalanan digər fərman və sərəncamlar ölkəmizdə insan hüquqlarının təmin olunması işinə mühüm təkan verib.

Məhz bu sahədə əsaslı islahatların və proqram xarakterli fərman və sərəncamların imzalanmasının nəticəsidir ki, Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquq normalarına cavab verən geniş hüquqi baza mövcuddur. Bu hüquqların həyata keçirilməsi ilə bağlı konkret hüquq müdafiə mexanizmləri fəaliyyət göstərir. İnsan hüquq və azadlıqlarının təmin olunmasıistiqamətində tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlətin siyasi iradəsi mövcuddur. Bu istiqamətdə davamlı olaraq islahatlar həyata keçirilir. Həmin islahatlar nəticəsindəqanunvericilik təkmilləşdirilərək müvafiq beynəlxalq sənədlərə uyğunlaşdırılır, əhalinin hüquq və azadlıqları daha yüksək səviyyədə təmin olunur.

> *İnsan hüquqlarının təmin edilməsi hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti, demokratikləşmə üçün şərtdir*

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Milli Məclisin İnsan Hüquqları Komitəsinin üzvü, deputat Naqif Həmzəyev deyib ki, müasir dövrdə istənilən cəmiyyətdə istər inkişaf, istərsə də demokratikləşmə baxımından ən mühüm göstərici insan hüquqları ilə bağlı dövlətin mövqeyi və onun təmin edilməsi səviyyəsidir:** "Hətta, demək olar ki insan hüquqlarının nə dərəcədə təmin edilməsindən asılı olaraq, dövlətləri fərqli kateqoriyalaşdırmaq belə mümkündür. Bu baxımdan, Azərbaycan Respublikası insan hüquqları və onun təmininə münasibətini ən ali - Konstitusiya səviyyəsində müəyyənləşdirib və nəzərdə tutulmaqda olan hüquqlar hər bir kəsin ilk növbədə konstitusional hüququdur.

Konstitusiyamızın 24-cü maddəsində təsbit edilir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. İnsan hüquqları dediyimiz anlayışın elə məhz özü budur; yəni, hərhansı göstərici və ya qrupa aidlik məfhumu olmadan, anadan olduğu andan etibarən bəhs edilən hüquq və azadlıqlara sahib olması və onların təmin edilməsinə qarşı münasibətdə dövlətin rolu.

Qeyd etmək lazımdır ki, xüsusilə Ulu Öndər Heydər Əliyevin Azərbaycanda xalqın tələbi ilə rəhbərliyə qayıtmağının ardından, hüquqi dövlət quruculuğu, vərəndaş cəmiyyəti və insan hüquqları dövlətin prioritet fəaliyyət istiqamətlərinə çevrildi. Hətta 18 iyun 1998-ci il tarixli prezident sərəncamı ilə təsdiq edilmiş insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı konteksində institusional və qanunvericilik islahatları həyata keçirilmiş, Kontitusiya nəzarətini həyata keçirən fəaliyyət mexanizmləri mənimsənmiş, məhkəmə islahatları həyata keçirilmiş, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatı yaradılmış, senzura ləğv edilmiş və kütləvi informasiya vasitələrinin, medianın sərbəst fəaliyyəti üçün bütün əsaslar yaradılmış və gücləndirilmişdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

Millət vəkili vurğulayıb ki, insan hüquqlarının prioritet istiqamət olaraq qəbul edilməsi ənənəsi Prezident cənab İlham Əliyev rəhbərliyində uğurla davam etdirilir: "Dövlət başçısının 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il 18 iyun tarixi İnsan Hüquqları Günü olaraq qeyd edilir. Bu cənab Prezidentin bu sahəyə xüsusi maraq və qayğısının nəticəsidir ki, dövlətin inkişafının da mühüm göstəricilərindən biridir. 27 dekabr 2011-ci il tarixdə isə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunub.

İnsan hüquqlarının təmin edilməsi hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti, demokratikləşmə üçün şərtdir. Lakin, mövzunun həssaslığını nəzərə alaraq bildirmək lazımdır ki, beynəlxalq müstəvidə aparılan müzakirələr konteksində də bir çox hallarda dövlətin başqa bir dövlətə müdaxilə bəhanəsi kimi qlobal mahiyyətə bürünə bilir. Bunun ən bariz nümunəsini keçmiş Qarabağ konflikti çərçivəsində müşahidə etdik. Azərbaycan öz suveren torpaqlarını işğaldan azad edərkən, torpaqlarımızdakı terrorçu-ekstremist yuvaya qarşı apardığımız hərbi əməliyyatları Qərbdə siyasiləşdirərək, sanki insan hüquqlarının tapdalanması olaraq xarakterizə etməyə çalışdılar.

Halbuki, kombatantlar və hərbi hədəflərə qarşı münasibətdə dövlət öz torpaqlarında yaradılmış hərbiləşmiş xunta rejimə qarşı başqa nə edə bilərdi ki? Daha sonra isə ölkəmizə qarşı fərqli qarayaxma kampaniyaları ilə informasiya terroru tətbiq etməyə çalışdılar. Lakin, bütün bu cəhdlər heç bir nəticə vermədi və verməyəcək. Çünki, dövlətimiz Müzəffər Lider cənab İlham Əliyev rəhbərliyində bütün sahələrdə olduğu kimi, insan hüquqlarının təmini ilə bağlı da dövlət ənənələrinin təkmilləşdirilməsi siyasəti aparır və açıq şəkildə ortadadır ki, ölkəmizə qarşı ikili standartlar, çirkin kampaniyaların ilk bəhanəsi insan hüquqlarından yönəlir. Kiçik bir tədqiqat isə kifayət edir ki, ölkəmizin insan hüquqlarına qarşı münasibətdə konstruktiv mövqeyi aşkara çıxsın".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Rusiya lideri Vladimir Putinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü iyulda Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammitində baş tuta bilər. Bunu Vladimir Putin Türkiyənin xarici işlər naziri Hakan Fidanla görüşündə bildirib.

■ Əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər nəqliyyat vasitələrinin parklanmasına görə cərimələr 6 dəfə artırılır. Layihəyə əsasən, əlilliyi olan şəxslərin nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş parklanma yerlərində digər nəqliyyat vasitələrinin parklanmasına görə altmış manat məbləğində cərimə ediləcək.

■ Velosipedini parklanma yerindən kənarda saxlayanlar cərimələnəcək. Layihəyə əsasən, velosiped və kiçik elektrik nəqliyyat vasitələrinin onlar üçün ayrılmış parklanma yerlərindən kənarda parklanmasına görə on manat məbləğində cərimə ediləcək.



■ Taksi duracaqlarında taksi minik avtomobili olmayan nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına icazə verilməyəcək. Layihəyə əsasən, taksi duracaqlarında taksi minik avtomobili olmayan nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə qırx manat məbləğində cərimə ediləcək.

■ Əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlanacaq, əmək müqaviləsi bildirişi ləğv olunacaq. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında çalışan, eləcə də əmək müqavilələrinə 2014-cü il iyulun 1-dək xitam verilmiş işçilərin əmək stajı onların əmək kitabçası əsasında müəyyən ediləcək.

■ Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) "Global Air Transport Outlook" hesabatına əsasən, hava nəqliyyatına tələbatın 2040-cı ilə qədər iki dəfə və illik orta hesabla 3,4% artacağı proqnozlaşdırılır.

Bunu Bakıda keçirilən Ümumdünya Aeronaviqasiya Sammitində çıxışı zamanı rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib.



■ 2023-2024-cü tədris ili ərzində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 175 məktəbəqədər təhsil müəssisəsində monitorinqlər keçirilib. Monitorinq aparılan məktəbəqədər təhsil müəssisələrinə fəaliyyətin səmərəli təşkili ilə bağlı müvafiq təkliflər verilib, nəticəyönlü idarəetmə modelini formalaşdırmaq üçün analitik hesabatlar hazırlanıb.

■ "Qarabağ"ın mövsümlərarası fasilə dövründəki hazırlıq planı müəyyənləşib. Klubdan verilən məlumata görə, Bakıda başlayacaq məşqlərə iyunun 18-də start veriləcək. Millilərin üzvü olan futbolçular komandanın hazırlığına ayın 23-də qoşulacaqlar. Paytaxtdakı toplanış çərçivəsində iki yoxlama oyununun keçirilməsi planlaşdırılır. Bu görüşlərin iyunun 29-da və iyulun 2-də təşkil olunması nəzərdə tutulub.

# Azərbaycanın karbohidrogen ixracı artacaq

**Dünya Bankı Azərbaycanın iqtisadi artımı proqnozunu sabit saxlayıb. Bu barədə Dünya Bankının "Qlobal iqtisadi perspektivlər" hesabatının iyun sayında bildirilib. Məlumata görə, Dünya Bankı Azərbaycanda 2024-cü ildə 2,3 %, 2025-ci və 2026-cı illərdə isə 2,4 % səviyyəsində iqtisadi artım proqnozlaşdırıb. Bu isə Bankın aprel proqnozu ilə eynidir.**



Dünya Bankı, ümumilikdə, Cənubi Qafqazda 2024-26-cı illər ərzində illik iqtisadi artımın 3,5 faiz səviyyəsində sabitləşəcəyini proqnozlaşdırıb.

"2023-cü ildə nəzərəçarpacaq dərəcədə azalmadan sonra Azərbaycanın karbohidrogen ixracının müəyyən qədər artacağı gözlənilir. İxrac səviyyəsində bu geridönüşün Ermənistan və Gürcüstanda son illərdə qeyri-adi yüksək səviyyədən artımın yavaşlamasını tarazlaşdırılacağı gözlənilir" - Dünya Bankının hesabatında əlavə edilib.

# İrəvanın sülh oyunu

◂ əvvəli 1-ci səhifədə

Maraqlıdır ki, dəfələrlə Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi kimi qəbul edən, sülh müqaviləsini tez bir zamanda imzalamağa həvəsli olduğunu bəyan edən erməni siyasi elitası bu maddəni dəyişdirməyə həvəssiz yanaşır.

■ **Bu məsələ Azərbaycan Xarici İşlər Nazirliyinin bir neçə gün əvvəl səsmləndirilən bəyanatında daha açıq şəkildə diqqətə çatdırılır. "Ermənistan Xarici İşlər Nazirliyinin bu ölkənin qonşularına qarşı ərazi iddiaları irəli sürməsi faktını təkzib etməyə yönəlmiş 7 iyun tarixli bəyanatı, əslində, beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycan ilə Ermənistan arasında sülhə nail olmaq üçün maneə təşkil edən çağırışlardan yayındırmaq niyyətindən başqa bir şey deyil".**

Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin 2024-cü il 7 iyun tarixli bəyanatına dair şərhində yer alıb. A.Hacızadə bildirib: "Bu gün həqiqətən də əsas problem başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarıdır.

Azərbaycanın milli təhlükəsizliyinə bilavasitə təsir edən bu iddianın Konstitusiyadan çıxarılmasını tələb etməyə legitim hüququ var və bu, Ermənistanın daxili işlərinə müdaxilə kimi qələmə verilə bilməz.

Ermənistan Xarici İşlər Nazirliyinin bu problemin gözardı edilə biləcəyi ilə bağlı məntiqi bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir. Bununla yanaşı, Ermənistanın keçmiş münaqişənin qalığı olan Minsk qrupunun bərpasına yönələn cəhdləri və hərbiləşmə siyasətini davam etdirməsi bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcud olduğunu nümayiş etdirir.

Bundan əlavə, Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi tamamilə əsassızdır. Heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır. Azərbaycanın sülh prosesi təşəbbüsü ilə çıxış etdiyini və ilkin layihəsi məhz Azərbaycan tərəfindən təqdim edilmiş sülh sazişi üzrə danışıqlar aparmağa Ermənistanı təşviq etdiyini nəzərə alaraq, bu ölkənin Azərbaycan tərəfinin sülh prosesində səmimiliyini şübhə altına almağa heç bir mənəvi əsası yoxdur.

Ermənistan başa düşməlidir ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrlə suverenlik və ərazi bütövlüyünün tanınması, habelə onlara riayət olunması əsasında münasibətlər qurmaq, həmçinin bu istiqamətdə təhlükə yaradan çağırışları aradan qaldırmaqdır". Göründüyü kimi, İrəvan sadəcə vaxt qazanmaq istəyir. Bu mövqe Paşinyanın sülh imitasiyası oyununun ssenarisini quranların da maraqlarına uyğundur. Ermənistanı düşdüyü böhranlı vəziyyətdən çıxarmaq üçün sülh sazişi adı altında bir sənəd imzalamaq və bununla da Cənubi Qafqazı yenidən barıt çəlləyinə çevirmək məqsədi ilə Azərbaycana qarşı ərazi iddialarını bir müddətlik yer altına çəkmək. Lakin rəsmi Bakı hər şeyin fərqindədir. Son illərin təcrübəsi göstərir ki, ölkəmizə qarşı qurulan bu siyasi oyunlar heç bir effekt vermir və məhvə məhkumdur. Bu dəfə də istisna deyil.

***✍ Vüsal Tağıbəyli***

# Qohum evliliyinə son?



**Humay Axundzadə,**
Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Ailə, gender, qayğı məsələləri üzrə tədqiqatçı

***Azərbaycanda qohum evliliklərin qadağan olunması gözlənilir. Qohum nikahlardan sağlamlığı məhdud uşaqların doğulması, bunun ailə və cəmiyyətdə doğurduğu problemlər ətrafında aparılan müzakirələr uzun illər formalaşan adət-ənənələrin fonunda birmənalı qarşılanmır. Belə qeydlər var ki, sağlam ailə və cəmiyyətin qurulmasında qohum nikahların təsiri varsa, bundan xilas yolu birbaşa ondan imtina hesab olunur. Bütövlükdə, əksər ailələr bu iddianı rədd edir, ta ki fiziki qüsurlu uşaqları dünyaya gələnə qədər...***

## Müsahib

Bu da faktdır ki, fiziki, əqli qüsurlu uşaqların dünyaya gəlməsi birbaşa qohumluq əlaqələri ilə bağlı deyil. Qohumluq bağları olmayan bir çox ailələrdə də fiziki, əqli qüsurlu, yaxud autizm, daun sindromlu uşaqların doğulduğunu müşahidə etməkdəyik. Əslində, problemin daha qlobal və geniş miqyasda araşdırılmasına ehtiyac var. Cəmiyyətin özünü xilas edə bilməsi üçün ilkin olaraq qohum nikahların aradan qaldırılması məsələsi çıxış xətti kimi önə çəkilir. Bu gün insanların, sadə ailələrin bu qlobal problemə qarşı özünün məsuliyyəti, ata biləcəyi addımlar üzərində dayanılır. Qurulan sağlam ailələr üzərindən inkişaf edən dövlət və cəmiyyətin fiziki, əqli qüsursuz nəsli yetişdirmək üçün qohum nikahları hədəf götürüb, qanunla onun ləğv edilməsi müzakirəyə açıq olsa da, nə dərəcədə mümkün ola biləcəyi sualı yaranır.

Bu istiqamətdə "Həftə içi"nə danışan Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Ailə, gender, qayğı məsələləri üzrə tədqiqatçı Humay Axundzadə bəzi məsələlərə diqqət çəkib.

***- Qohum evliliklər qanunla qadağan edilə bilərmi?***

- Hesab edirəm, qohum evliliklər qanunla qadağan edilə bilər yox, edilməlidir. Aparılan bir sıra tədqiqatlar onu göstərir ki, qohum nikahlar son illər artım tendensiyası nümayiş etdirir. Bu isə o deməkdir ki, qohum evlilikləri qadağan edilməsə, vəziyyət daha da acınacaqlı olacaq. Problem ondadır ki, qohumlar şəbəkəsində qohum evliliyi normal hesab olunursa, orada qohumların evləndirilməsi nəsildə getdikcə davam edir, çoxalır. Bu da irsi xəstəliklərin, qüsurlu uşaqların dünyayagəlmə riskini qat-qat artırır. Tədqiqatlar göstərir ki, Azərbaycanda müxtəlif yaş qruplarına aid olan insanların mühafizəkarlığa, ifrat ənənəçiliyə meyli fərqli şəkildədir. Hazırda övladları nikah yaşına çatmış 45-50 yaşında olan valideynlər qrupunda bu, daha çoxdur. Mühafizəkar yaş qrupunun öz övladlarını qohum evliliyinə sövqetmə halları daha çox olduğu üçün bu, qanunla qadağan edilməsə, daha ağır fəsadlar yarada bilər.

Tək bizdə deyil, ümumiyyətlə, qohum evliliklərin olduğu bir çox cəmiyyətlərdə ayrı-ayrı hallar təhlil olunarsa görərik ki, qohum evliliyi, bəzən, gənclərin romantikləşdirilən sevgisində deyil, sırf ailədə yaşlı nəslin təzyiqi nəticəsində baş verir. Bu isə həm də insan haqlarının pozulması halı hesab oluna bilər. Ona görə də həm insan hüquqlarının qorunması, həm də tibbi baxımdan belə neqativ halların qarşısının alınması, ən azından, azaldılması üçün qanunvericilik səviyyəsində müəyyən tədbirlər həyata keçirilməlidir.

***- Bu qadağa cəmiyyət üçün hansı dərəcədə faydalı ola bilər?***

- Bir məsələni vurğulamaq istəyirəm: qohum evliliklərin qanunla qadağan edilməsi bir neçə aspektdən cəmiyyət üçün fundamental əhəmiyyətə malikdir. Birincisi, bu, milli genofondun sağlamlığının təmin olunmasıdır; yəni daha zəif, sağlamlığı yerində olmayan uşaqların dünyaya gəlməməsi üçün bu qanun çox vacib, yerində ola bilər. İkincisi, cəmiyyətimizdə gender bərabərliyinin təmin olunması ilə bağlıdır. Qohum evliliklər bir çox hallarda erkən olur, bəzən məcburi evlilik olur ki, bu da əksər hallarda bizim qızlarımızı təhsil almaq, işləmək, sosiallaşmaq, səlahiyyətlənmək imkanlarından məhrum edir. Üçüncüsü, qohum evliliklər çox vaxt yaşlı nəslin təkidi ilə baş verdiyindən, bu həm də insan hüquqlarının pozulması aspektindən nəzərdən keçirilə bilər. Gənclərin hüquqlarının təmin edilməsi baxımından da vacibdir. Bu istiqamətdə, təbii ki, daha geniş mülahizələr irəli sürmək olar.

***- Azərbaycan cəmiyyətində qohum evliliklərinin əsasında milli adətlər, mental dəyərlərin olduğu deyilir. Belə olan halda məsələnin qanunla icrası nə dərəcədə mümkündür?***

- Bəzən insanlar müxtəlif davranışlarına bəraət qazandırmaq üçün ənənə diskursundan istifadə edirlər. Ənənə daha dominant, geniş bir davranışdır. Qohum nikahların olması ənənəyə bağlı olsaydı, o zaman çoxluq qohum evliliyinə gedərdi. Əslində bu, ayrı-ayrı sosial qrupların, təbəqələrin, sosio-mədəni çevrələrin "ənənə" adlandırdığı bir təcrübədir. Hesab edirəm, qohum nikahların ənənədən gəldiyini belə sual altına qoymaq lazımdır. Digər tərəfdən, elmi araşdırmalar, tibbin göstərdiyi faktlar bunların görməzdən gəlinməsini mümkünsüz edir. Biz nə qədər qohum nikahlarını ənənədən gəlmə hesab etsək də, bu, bizim yeni doğulan nəslin həyatına, sağlamlığına vurulan zərbədir. Əgər belədirsə, ondan imtina edilməlidir. Ümumiyyətlə, xəstə, qüsurlu nəsil yetişdirən bir ailənin qurulması nə dərəcədə doğrudur?

> "Qohum nikahlarını qadağan etmək ailə institutuna, insanların ailə səadətinə maneə yaratmır
>
> Xəstə, qüsurlu nəsil yetişdirən bir ailənin qurulması nə dərəcədə doğrudur?

Digər tərəfdən, insanların davranışını tənzimləyən elə bir qanun yoxdur ki, onun icrasında müəyyən çətinliklər olmasın. Bu prosesdə də müəyyən çətinliklərin olacağı labüddür. Ola bilər ki, insanların bir qismi bununla bağlı dolayı yollar, taktikalar axtarsınlar. Yenə də qadağanedici qanun insanların nəinki davranışına, davranışı vasitəsilə həm də düşüncəsinə də təsir edəcək. Ona görə də deyərdim ki, bu məsələdə prinsipial və nikbin mövqe tutmaq lazımdır.

***- Qohum evliliklərin qadağan edilməsi ailə-məişət, sosial sferada ailələr üçün hansı təhlükəli məqamların ortaya çıxara bilər?***

- Qeyd etmək istərdim ki, hətta məktəb proqramlarında qohum evliliklərin təhlükəsi barədə danışılır. Əgər 40 nəfərin birində hansısa xəstəlik varsa, qohum evlilikdə gendə olan əlamət, qüsur dominanta keçir və övladların şikəst doğulması artır. Bu, təkcə xəstəliklə bağlı deyil, biz orta ömür uzunluğuna da baxsaq görərik ki, bəzən qohum evliliyində olan şəxslər özləri uzunömürlü olur, amma onların övladları uzun ömür yaşaya bilmirlər. Bir növ, genetik olaraq cırlaşma gedir. Onların uşaqları şikəst olmasalar da, ata-anaları qədər uzunömürlü olma ehtimalı azalır.

Digər tərəfdən düşünürəm, qohum nikahlar qanunla ləğv ediləndən sonra onlar arasında bu yöndə hər hansı mübahisənin, gərginliyin yaranmasının da qarşısı avtomatik alınacaq. Bu halda nikahın qurulması ailədə atananın iradəsinə bağlı olmur. Əsas amil qanunla bağlı olduğu üçün qohumlar arasında gənclərin evləndirilməsi, yaxud boşanması, digər problemlərlə bağlı ailə münasibətlərinin pozulmasına yönəlik şərait yaranmır. Eləcə də sevgi münasibətində olan gənclərin bu qadağadan dolayı depressiya, yaxud intiharlara sövq edilməsi amilləri də aradan qalxır. Qohum nikahlarla bağlı qadağa millətin genofondu, sağlamlığı göstəriciləri baxımından həm insanların məcburi evlilikdən mümkün qədər uzaq olmasına gətirib çıxara bilir. Mediada da yayılan xəbərlərdən də görürük ki, intihar edən gənclərin bir hissəsi məcburi evliliklər zəminində bu yola əl atıb. Məcburi evliliklərin də kifayət hissəsi qohum evlilikləridir.

***- Qohum nikahların zərərliliyi ilə bağlı verilən tövsiyələr, çıxışlar sevgi münasibətində olan gənclər tərəfindən qəbul edilmirsə, bu qadağa hansı sosial gərginliyə gətirə bilər? Yaxud hansı addımlarla qohumları ailə qurmaq düşüncəsindən yayındırmaq olar?***

- Ailədə tərbiyədən çox şey asılıdır. Azərbaycanda on minlərlə gənc var ki, onlar ailədə elə tərbiyə görüblər ki, öz əmi, dayı, bibi, xala uşaqlarını bacı, qardaş kimi tanıyırlar. Yəni onlar üçün öz qohumları ilə hansısa sevgi münasibətlərinin olması ağlasığmaz haldır. Hesab edirəm, burada ailənin verdiyi tərbiyə, eyni zamanda, məktəbin özündə olan müəyyən təbliğat işi çox önəmlidir. Uşaqlar, gənclər ailədə düzgün istiqamətləndirilsə, onlar öz qohum-əqrəbasını potensial həyat yoldaşı kimi nəzərdən keçirməzlər. O zaman orada sevgi münasibətlərinin yaranma ehtimalı da azalar.

Bir daha qeyd edim ki, qohum evliliyində yaşlı nəslin yönləndirilməsi çox önəmlidir. Analar, atalar, babalar, nənələr öncədən gənclərə ipucu verəndə, hansısa qohum qızını, oğlunu, bir növ, evliliyə namizəd kimi göstərəndə onda gəncin ürəyinə hansısa fikirlər gəlir, bu istiqamətdə nələrsə düşünürlər.

***- Qohum evlilik və qohum olmayan gənclərin evlilikləri olan ailələr arasında aparılan araşdırmalara görə, xəstə uşaqları, sonsuzluğu olanlar daha çox hansı kateqoriyaya aid ailələrdə olanlardır?***

- Fərq kifayət qədər böyükdür. Qohum evliliklərində xəstə uşaqların dünyaya gəlməsi daha çoxdur. Əlillik təkcə qohum evliliyindən meydana çıxmır. Bununla belə, biz qohum nikahların xəstə uşaqlar dünyaya gəlməsi amilini yaddan çıxara bilmərik. Və təbii ki, onunla mübarizə müəyyən nəticələr verəcək.

***- Azərbaycan kiçik bir ölkədir və əhalisi də çox deyil. Ölkə daxilində ailələrin qohumluq bağları genişdir. Bu amil qohum olmayan gənclərin bir-biri ilə qarşılaşmasını çətinləşdirməklə yanaşı, yeni ailələrin qurulmasını azalda bilərmi?***

- Mən ölkəmizin kiçikolma fikri ilə razılaşmıram. Yəni əhalisi 1-2 milyon, 500 min nəfər olan ölkələr var. Bizim 10 milyonluq əhalimiz mövcuddur. Düşünmürəm, sırf qohum evliliyin ləğvi yeni qurulacaq ailələrin sürətinin azalmasına səbəb ola bilər. Digər tərəfdən, "qadağan olunan qohum nikahlar" deyərkən burada sırf nənə-babası eyni olan qohumlardan söhbət gedir. Biz qohum nikahları qadağan etməklə ailə institutuna, insanların ailə səadətinə maneə yaratmırıq.

Yəni, əhalinin demoqrafik strukturunda elə bir narahatlıq doğurucu göstəricilər olmadığına görə, qohum nikahlarının ləğvi ilə heç ailə institutlarına da zərbə vurmuruq. Qətiyyən belə deyil. Hazırda evlilik yaşına çatmış və ya çatmaqda olan kifayət qədər gənc var. Əksinə, qohum nikahları qadağan olunanda valideynlər gənclərin daha geniş sosial çevrədə şəxələnməsinə maneə yarada bilməyəcəklər. Gəlin unutmayaq ki, qohum evlilikləri çox zaman erkən evlilik və yaxud daha gənc evliliklə müşahidə olunur. Qohum evliliyi erkən nikaha cəlb olunan qızların təhsildən uzaqlaşmasına, bir çox hallarda ölümlə nəticələnən doğuşlarla müşahidə olunur. Deməli, qohum nikahların qadağan olunması, eyni zamanda, erkən nikah, uşaq ölümləri və boşanmaların da sayını azalda bilər, gənc qızların peşə fəaliyyəti istiqamətində rolunun artmasına imkan yaradar. İstənilən halda qohum nikahlarının ləğvini təkcə milli genofondun sağlamlaşdırılması deyil, həm də gender bərabərliyinin təmin olunması baxımından mühüm addım hesab edirəm.

✍ *Tahirə Qafarlı*

## Müsahib



**Qafar Çaxmaqlı,**
Türkiyədə fəaliyyət göstərən ermənişünas alim

***Hazırda Türkiyədə fəaliyyət göstərən ermənişünas alim Qafar Çaxmaqlı ilə hafta.az üçün budəfəki söhbətimizdə - Türkiyənin Rusiyanın aparıcı rol oynadığı "BRİKS" təşkilatına üzv olmaq arzusunun xarici işlər naziri səviyyəsində bəyan olunması; həmin quruma üzv olmağın qardaş ölkəyə verə biləcəyi mümkün iqtisadi, yaxud siyasi faydalar; Ərdoğan hökumətinin İsrail dövləti ilə faktiki "soyuq müharibə" şəraitində olması; rəsmi Ankaranın İrəvandakı Paşinyan hökumətinin hakimiyyətdə qalmasına birbaşa və ya dolayısı ilə dəstək verə bilməsi ehtimalı; Türkiyə-Ermənistan münasibətlərinin normallaşması və sərhədlərin açılmasının Azərbaycan-Ermənistan sülh sazişi ilə birbaşa bağlılığı; Türkiyə dövlətinin son dövrlərdə ölkədə yaranmış ağır iqtisadi-sosial durumdan çıxmaq üçün gördüyü tədbirlər və s. mövzulardan bəhs etdik.***

# Türkiyə doğru bildiyi addımları atır

***- Türkiyə XİN başçısı Hakan Fidanın Çində də, Rusiyada da ölkəsinin "BRİKS"ə daxilolma arzusunu ifadə etməsi, həmin qurumun Rusiyadakı tədbirinə qatılması, hətta "BRİKS"i "Avropa Birliyinə alternativ" adlandırması Ərdoğan iqtidarının doğrudanmı Moskvanın aparıcı rol oynadığı quruma üzvlükdə maraqlı olmasını ifadə edir, yoxsa bu, rəsmi Ankaranın növbəti özünəməxsus gedişi, manevridir?***

- Nəzərə almaq lazımdır ki, Türkiyə artıq regional yox, qlobal gücdür və onun üçün dividend gətirəcək istənilən ittifaqa daxilolma və orada söz sahibinə çevrilmə imkanlarını dəyərləndirə bilər. "BRİKS" də belə qurumlardan biridir. Türkiyənin NATO üzvü olmasının buna əngəl törədəcəyini düşünmək yanlışlıqdır. Bu ittifaqa maraq göstərmək, həm də ona daxil olmaq anlamına gəlmir, diplomatiyada manevrlər də məqbul gedişlərdir...

***- "BRİKS"ə daxil olmaq Türkiyəyə gerçəkdən hansısa iqtisadi, yaxud siyasi fayda verə bilərmi?***

- Bu quruma maraq göstərməklə Türkiyə hər zaman öz dövləti maraqlarını hesablayacaq. Avropa Birliyi ilə bağlı Türkiyənin uzun illərdən bəri sərgilədiyi açıq siyasət ortadadır. Heç bir iqtisadi potensialı olmayan, Avropa Birliyi çərçivəsindən uzaq bəzi ölkələr bu quruma alındılar, Türkiyə isə yox. Məcbur alternativlər axtarılmalıdır. Bunlardan biri türk birliyi ola bilər. Bu sahədə də Türkiyənin qərarlı addımlarını yaxında görə biləcəyik...

***- Türkiyə belə bir addım atarsa, yəni "BRİKS"ə daxil olarsa, üzvü olduğu NATO-nun, Qərbin, ABŞ-nin buna reaksiyası necə olar?***

- Türkiyə indi elə dövlət deyil ki, siyasətini kiminsə iradəsinə uyğunlaşdırsın. Ötən illərin təcrübəsi də göstərir ki, Türkiyə kimin reaksiyasının necəliyindən asılı olmayaraq, doğru bildiyi addımları atıb...

***- Digər tərəfdən, Ərdoğan hökuməti İsrail dövləti ilə faktiki "soyuq müharibə" şəraitindədir. Bu barədə nə deyə bilərsiniz?***

- İsrailin davranışları ilə bağlı Türkiyənin siyasəti də dəyişilməzdir. Harada bir zülm varsa, Türkiyənin orada olması bu dövlətin ənənələrindən gələn bir tutumdur. Qəzzadakı hadisələr Yaxın Şərqdə uzun illər formalaşmış İsrail mifinin puç bir şey olduğunu göstərdi, bu, İsraillə "soyuq müharibə" anlamına gəlməz. Məncə bu, ədalətin bərpa olunması mənasını ifadə edər. Dünyanın 140-a yaxın ölkəsi Fələstin dövlətini rəsmən tanıdı. Həm də Türkiyənin yaxın Şərqdə "PKK" dövləti qurmağa yardım edən qüvvələrə qarşı kart blanşıdır...

***- Bir müddət öncə Türkiyənin tanınmış yazarı Nevzat Çiçək dedi ki, Paşinyanı xarici və daxili təhlükələrdən türk xüsusi təyinatlıları qorumalıdır. Bundan az sonra isə Türkiyənin milli müdafiə naziri Yaşar Gülər yerli KİV-ə müsahibəsində bildirdi ki, "Paşinyanın sülh barədə açıqlamalarını müsbət hesab edirəm. Düşünürəm ki, o, həm ölkəsi, həm də cəmiyyəti üçün düzgün iş görüb və real yanaşmaya malikdir". Necə hesab edirsiniz, Türkiyə dövlətinin hazırkı Ermənistan hökumətinə real münasibəti necədir? Doğrudanmı, rəsmi Ankara Paşinyanın hakimiyyətdə qalmasına birbaşa və ya dolayısı dəstək verir?***

-"İndependent Türkçe"nin hörmətli baş yazarının, Nevzat Çiçək bəyin söylədikləri bir jurnalistin arzuları ola bilər. Ermənistanı izləyən biri olaraq deyim ki, Paşinyanı qorumağa da ehtiyac yoxdur. Onu aradan götürmək təhlükəsi bir ölkədən gələ bilər - Rusiyadan. Moskvanın isə bəlli mərамı ona görə yoxdur ki, Paşinyan Rusiyaya bu ölkədə aktiv siyasət yürütmək imkanları verir. Başqa sözlə, Paşinyan Rusiyaya da sərf edən fiqurdur. Rusiya Ermənistan baş nazirinə "Qərbin adamı", "Sorosçu" adı qoyub, bu ölkədəki proseslərə nəzarət etmək imkanı əldə edir. Əlbəttə, Nevzat bəyin Paşinyanın sülhlə bağlı yorumu doğrudur. Paşinyanın Azərbaycanla sülhdən başqa alternativi varmı? Zənnimcə, Türkiyənin Ermənistandakı proseslərə təsir imkanları çox məhduddur. Bəs Paşinyanın hakimiyyətdə qalması Türkiyəyə sərf edirmi? Hesab edirəm, bunun elə də bir əhəmiyyəti yoxdur. Axı Türkiyə bu işə niyə qarışsın ki?

> "Heç bir iqtisadi potensialı olmayan, Avropa Birliyi çərçivəsindən uzaq bəzi ölkələr bu quruma alındılar, Türkiyə isə yox

***- Necə düşünürsünüz, Azərbaycanla Ermənistan arasında sülh danışıqları, sərhədlərin müəyyənləşdirilməsi prosesi daha da sürətlənərsə, bu, tezliklə Türkiyə-Ermənistan sərhədlərinin açılmasına gətirib çıxaramı?***

- Türkiyə ilə Ermənistan münasibətlərinin normallaşması və sərhədlərin açılması Azərbaycan Ermənistan sülh sazişi ilə birbaşa bağlıdır. Türkiyə gözləyir. Qardaş ölkənin maraqları var və onların reallaşması nəticəsində sərhədlərin açılması və Ermənistanla diplomatik əlaqələrin qurulması bir neçə günün işi olacaq...

***- Hazırda Türkiyədə yaşayıb-işləyən bir alim kimi oradakı sosial çətinlikləri öz üzərinizdə hiss edirsinizmi? Aylıq məvacibiniz normal yaşamağa imkan verirmi?***

- Bəli, Türkiyə iqtisadi çətinliklər yaşayır, amma bundan faciəli durum kimi bəhs etmək doğru deyil. İnflyasiya, bahalaşma var, hökumət bəlli planlarla onun qarşısını almaq üçün tədbirləri görür və nəticələr də alınır. İqtisadi proqramların həyata keçirilməsi prosesi gedir. Türkiyə böyük, qüdrətli ölkədir, dövlətdir və bu çətinliklərin öhdəsindən də gələcəyinə mənim də inamım var...

***- Sizcə, Türkiyə dövləti tezliklə bu ağır iqtisadi-sosial durumdan çıxa biləcəkmi? Və necə çıxacaq?***

- Türkiyədə iqtisadi durumu nəzarətə almaq tədbirləri ilə bağlı hökumət proqramı var və elan olunub ki, ilin sonuna qədər inflyasiya tək rəqəmə düşəcək. Hər halda, bu durumun aradan qaldırılması üçün qərarlılıq var, dövlətin resurs və potensialı yaxın müddətlərdə iqtisadi-sosial vəziyyətin yaxşılaşacağına ümidləri artırır...

✍ *Sultan Laçın*

# Manatla bağlı beynəlxalq proqnoz

***"S&P Global Ratings" Beynəlxalq Reytinq Agentliyi Azərbaycan manatı ilə proqnozunu açıqlayıb. Bu proqnoz "S&P Global Ratings" beynəlxalq reytinq agentliyinin Azərbaycan üzrə hesabatında yer alıb. "S&P" ABŞ dolları/Azərbaycan manatı məzənnəsinin 2026-cı ilə kimi 1.70 səviyyəsində qalacağını müəyyən edib. Agentlik bəyan edib ki, yalnız neft və qaz qiymətlərinin kəskin şəkildə aşağı düşəcəyi təqdirdə, manatın məzənnəsində düzəlişlər gözləniləndir: "Biz güman edirik ki, ABŞ Dollar/Azərbaycan manatı məzənnəsi 1,70 səviyyəsində sabit saxlanılacaq.***



## Məzənnə

Bu, rəsmi orqanların xarici valyuta bazarına müntəzəm müdaxilələri ilə dəstəklənir. Buna baxmayaraq, bizim fikrimizcə, karbohidrogen (neft və qaz) qiymətləri kəskin şəkildə aşağı düşərsə və uzun müddət aşağı qalarsa, Azərbaycan rəsmiləri məzənnəyə düzəlişlər etməyi düşünə bilər. Bu, Mərkəzi Bankın 2015-ci ildəki tədbirləri kimi xarici valyuta buferlərinin əhəmiyyətli dərəcədə itkisinin qarşısını almağa kömək edəcək".

> *Dollara tələbatın artması ilə bağlı məsələlərdə idxal amilini mütləq nəzərə almaq lazımdır*

Yeri gəlmişkən, maliyyə bazarında mövcud vəziyyətin təhlili göstərir ki, bu ilin əvvəlindən Azərbaycanda ABŞ dollarına tələbatın artması davam edib. Mərkəzi Bankın məlumatına görə, yanvar-may aylarında 37 valyuta hərracında banklara 2 milyard 968 milyon ABŞ dolları satılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfə çoxdur. Açıqlanan rəqəmlərə görə, ilin ilk üç ayında Azərbaycanda əhalinin də dollara tələbi kəskin artıb. 2024-cü ilin yanvar-mart aylarında insanlar banklardan 931.3 milyon dollar alıblar. Bu da illik müqayisədə 491.5 milyon manat və ya 112 faiz çoxdur. İlin əvvəlində Mərkəzi Bank hərraclarda valyutaya tələbin aktivləşməsini mövsümi xarakterli adlandırmışdı. Qeyd olunurdu ki, bu, əsasən, bir sıra dövlət layihələrinin icrası və özəl sektorun idxal tələbi, o cümlədən, ərzaq və kənd təsərrüfatı məhsulları ilə əlaqədardır. Amma görünən odur ki, mövsümi proses başa çatsa da dollara tələb artmaqda davam edir. Düzdür, bankların hərracda hansı məbləğdə pul tələb edəcəyini öncədən heç vaxt müəyyən etmək olmur. Bu onu göstərir ki, bankların müştərilərində tələbat çoxalıb. Dollara tələbatın yüksəlməsi isə manata təzyiqləri artırır. Bəs, görəsən, belə bir şəraitdə məzənnəni sabit saxlamaq mümkün olacaqmı?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-alim Fuad İbrahimov deyib ki, dollara tələbatın artması ilə bağlı məsələlərdə idxal amilini mütləq nəzərə almaq lazımdır:** "Azərbaycanda dollara tələbatın artmasının səbəbi iqtisadi aktivliyin artması ilə bağlıdır. Şirkətlər xaricdən alış-verişi dollarla edir. Bu da dollara tələbatın artmasına gətirib çıxarır. Yəni, xaricdən gətirilən bütün mallar da özlüyündə dollar tələb edir. Mal alanda onun pulunu ödəmək üçün dollardan istifadə edilir. Buna inşaat materiallarını misal göstərmək olar. Bildirim ki, Qarabağda yenidənqurma və bərpa işlərini aparmaq üçün həmin ərazilərə müasir avadanlıqlar və ləvzimatlar gətizdirilir. Məhz həmin avadanlıqlar və ləvazimatlar ölkəyə idxalı dollarla həyata keçirilir. Bu da dolayısı yolla dollara tələbatı artırır".

O həmçinin qeyd edib ki, Azərbaycanda ABŞ dollarına tələbatın bu həcmdə artması manata heç cür təsir göstərə bilməz: "Düşünürəm, ölkəmizin valyuta ehtiyatları kifayət qədər çoxdur. Eyni zamanda, "S&P Global Ratings" Beynəlxalq Reytinq Agentliyinin mütəxəssislərinin də vurğuladığı kimi, manatın sabit məzənnəsi rəsmi orqanların xarici valyuta bazarına müntəzəm müdaxilələri ilə dəstəklənir. Burada neft qiymətlərinin yüksək olması drayver rolunu oynayır. Hazırda dünya birjalarında neft qiymətləri yüksəkdir. Bu da o deməkdir ki, devalvasiya üçün şərait yoxdur. Əgər bazarda qiymətlər kəskin şəkildə düşərsə, o zaman manatın məzənnəsi dəyişə bilər".

■ **İqtisadçı ekspert Pərviz Heydərov da qeyd edir ki, ölkəmizdə manatın məzənnəsi inzibati qaydada müəyyən olunur:** "Manatın dəyəri Mərkəzi Bank tərəfindən inzibati yolla saxlanılır, ona görə də Amerika və digər aparıcı ölkələrin milli valyutalarının dəyərində düşməsi və ya dəyərə minməsi manata təsir göstərmir. Azərbaycanda devalvasiya neftimizin dünya bazarındakı qiymətlərinə bağlıdır. Nə qədər ki, neftimiz büdcədə müəyyən etdiyimiz fiksal qiymətdən baha satılır, bir o qədər manatın dəyəri sabit qalacaq. Bu da milli valyutamızın dəyərinin Mərkəzi Bank tərəfindən inzibati yolla tənzimlənməsinin hələ də davam etdiriləcəyinə işarədir". Onun sözlərinə görə, nə vaxt ki, ölkəmizdə qeyri-neft və qaz sektorunun ixrac məhsullarının artım səviyyəsinin həcmi ümumi ixrac potensialımızda 40 faizdən çox təşkil edəcək, 50 faizə çatacaq, bax o zaman valyuta bazarımızda sərbəst üzən məzənnəyə keçiriləcək: "Manatın dəyəri sizin qeyd etdiyiniz amilin, yəni dolların təsiri nəticəsində müəyyən diapazonda rəqs edəcək. Hələlik belə bir məsələ mövcud deyil.

> *Nə qədər ki, neftimiz büdcədə müəyyən etdiyimiz fiksal qiymətdən baha satılır, bir o qədər manatın dəyəri sabit qalacaq*

Yaxın illərdə qeyri-neft və qaz sektorumuz və ixrac imkanlarımızın 40 faizdən yuxarı, məxsusi olaraq, 50 faizə çatacağı gözlənilmir. Hələ bir müddət bizim əsas ixrac məhsulumuz xam neft və təbii qaz təşkil edəcək. Ölkəmizdə milli valyutanın dəyəri məhz neftin qiymət səviyyəsindən asılı olacaq. Bilirsiniz ki, dünya bazarlarında isə qiymət 80 dollar ətrafında rəqs edir. Nə qədər ki, bu vəziyyət davam edəcək, devalvasiya söhbəti də baş verməyəcək".

Bununla yanaşı, ekspert qeyd edir ki, hansısa "fors-major" və geosiyasi hallar nəticəsində və yaxud digər səbəblərdən neftin dünya bazarındakı qiymətləri 60 dollardan aşağı enərsə, xüsusi olaraq, 50 dollardan aşağı düşərsə, bu, manatın dəyəri üçün ciddi təhlükələr yaradacaq və Mərkəzi Bank manatın dollara münasibətdə məzənnəsini sərbəst buraxmağa məcbur qalacaq. Belə bir hal ən azı bu il üçün gözlənilmir.

✍ Sevinc

# Binə qəsəbəsinə və Hava Limanına dəmir yolu çəkiləcək



**Hazırda Vahid Nəqliyyat Strategiyası hazırlanır. Bu strategiyaya əsasən, gələcəkdə Hövsan yolunun da bərpası planlaşdırılır. Bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) Sərnişin daşımaları departamentinin rəisi Azər Fərəcov deyib. O bildirib ki, eyni zamanda, Binə qəsəbəsinə və Hava Limanına dəmir yolunun çəkilməsi sözügedən strategiyada qeyd olunub. Bu işlər də mərhələli qaydada görüləcək.**

Bundan əlavə, ADY Qərb bölgəsinin sakinlərindən daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq, Bakı-Ağstafa-Bakı marşrutu üzrə reyslərin sayını iki dəfəyədək artırır. Belə ki, sürətli qatarlar, artıq hər gün səhər və axşam saatlarında həm Bakıdan, həm də Ağstafadan hərəkət edəcək. Qatarlar hər gün Bakıdan Ağstafaya saat 08:00 və saat 18:00-da, Ağstafadan Bakıya isə saat 08:20 və saat 18:20-də yola düşəcək.

# Narkotiklə bağlı 4 856 cinayət faktı aşkarlanıb



**2024-cü ilin yanvar-may ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 4856 cinayət faktı aşkarlanıb.**

Bu barədə Azərbaycan Respublikasının narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasından bildirilib. Məlumata görə, onlardan 1391-i narkotik vasitələrin qanunsuz satışı, 3408-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 54-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 3-i isə digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 2 ton 828 kq 028,848 qr narkotik vasitələrin və psixotrop maddələrin 366 kq 854,895 qr-nı heroin, 2 ton 233 kq 579,189 qr-nı marixuana, 80 kq 405,927 qr-nı tiryək, 27 kq 561,001 qr-nı həşiş, 111 kq 149,216 qr-nı psixotrop maddələr, 8 kq 478,62 qr-nı digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 9190 ədəd metadon həbi, 3654 ədəd çətənə kolu və 318,8 qr güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

# "Nar"ın əsas tərəfdaşlığı ilə "Balloon Festival" keçirildi ®

**"Nar"ın əsas tərəfdaşlığı ilə bu yayın ən çox gözlənilən tədbirlərindən biri olan "Balloon Festival" yekunlaşdı. İyunun 8-9-da Şamaxı rayonunda keçirilən festivalda 20 mindən çox ziyarətçi iştirak etdi.**



Sərfəli təkliflərini regionlara daha da yaxın etmək məqsədinə sadiq qalan "Nar" festival zamanı müştərilərinin üstün xidmətlərə asan çıxışını təmin edib. Əsas tərəfdaş olaraq, "Nar" qonaqların səmada hava şarlarından, o cümlədən mobil operatorun brendini əks etdirən hava şarının uçuş mənzərəsindən həzz alması üçün rahat və canlı atmosferin yaradılmasına öz töhfəsini verib. Həmçinin, festival boyunca iştirakçıları maraqlı süprizlərlə sevindirən "Nar"onlara müxtəlif dəyərli hədiyyələr də təqdim edib.

Qeyd edək ki, milli irsin qorunub saxlanması və daha geniş miqyasda nümayiş etdirilməsi "Nar"ın əsas strateji istiqamətlərindəndir. Regionlarda əhəmiyyətli tədbirlərə dəstək verməklə "Nar" turistlər arasında Azərbaycanın ecazkar təbiətinə və zəngin mədəniyyətinə marağı artırır. "Nar" festivalları, musiqi və idman tədbirlərini müştərilərinə daha da yaxın edərək onlar üçün maraqlı istirahət imkanları yaradır. "Nar"ın dəstəyi ilə həyata keçirilən layihələr haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



■ **Texniki cəhətdən nasaz olan kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə görə yeni cərimələr müəyyənləşir.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni-338-1-ci maddədə əksini tapıb. Layihəyə əsasən, kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən texniki cəhətdən nasaz olan kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə görə dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə ediləcək. Yuxarıda nəzərdə tutulmuş xəta nəticəsində zərər çəkmiş şəxsin sağlamlığına yüngül bədən xəsarətinin yetirilməsinə və ya zərər çəkmiş şəxsə maddi zərər vurulmasına görə - min manatdan min iki yüz manatadək məbləğdə cərimə ediləcək.



■ **10 il 6 ay azadlıqdan məhrum edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (ləğv edilib - red.) generalı Elçin Quliyevin məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülməsi mümkün deyil. Bakı Apelyasiya Məhkəməsi generalın şikayəti ilə bağlı qərarında belə yazır.**

Məhkəmə hesab edir ki, məhkum Quliyev cəzasının 2/3 hissəsini çəksə belə, ciddi rejimli cəzaçəkmə müəssisəsində saxlanıldığı üçün yeri dəyişdirilə bilməz. Qanuna görə, yalnız ümumi rejimli cəzaçəkmə müəssisəndə saxlanılan şəxs məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülə bilər. Bundan əvvəl Xəzər Rayon Məhkəməsi də eyni səbəbdən müraciəti geri qaytarmışdı. Yuxarı instansiya məhkəməsi də şikayəti əsassız olduğundan rədd edib.



■ **"Gürcüstan və Rusiya rəhbərliyi iki ölkə arasında diplomatik münasibətlərin bərpa edilməsi ilə bağlı fəal işlər görür".**

Bu barədə məlumatı öz mənbələrinə istinadən Gürcüstanın müxalif "Mtavari arxi" telekanalı yayıb. "Əldə etdiyimiz məlumata görə, hakim "Gürcü arzusu" partiyası və Rusiya rəhbərliyi diplomatik münasibətlərin bərpa edilməsi ilə bağlı fəal işlər görür və danışıqlar aparır.

Ölkə rəhbərliyi Moskvada Gürcüstan Səfirliyini açmağı planlaşdırır, hətta artıq əməkdaş seçimi də başlayıb", - deyə telekanal iddia edib. Qeyd edək ki, Moskva 2008-ci ilin avqustunda Abxaziya və Cənubi Osetiyanın suverenliyini tanıdıqdan sonra Gürcüstanla Rusiya arasında münasibətlər kəsilib.



■ **Ümumi istifadədə olan nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş hərəkət zolağı olan yollarda hərəkət edən digər nəqliyyat vasitələrinin həmin zolaqda hərəkət etməsinə görə yeni cərimələr müəyyənləşir. Bu, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, "Yol hərəkəti haqqında" qanunun yol verdiyi hallar istisna olmaqla, 5.9, 5.10.1-5.10.3 nişanları ilə işarələnmiş, ümumi istifadədə olan nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş hərəkət zolağı olan yollarda hərəkət edən digər nəqliyyat vasitələrinin həmin zolaqda hərəkət etməsinə görə yüz manat məbləğində cərimə ediləcək. Bu xəta 2 balla qiymətləndiriləcək.



■ **Dövlət İmtahan Mərkəzi II və III ixtisas qrupları üzrə 26 may 2024-cü il tarixində keçirilmiş qəbul imtahanının nəticəsini elan edib.**

DİM bu imtahanlarda hər iki ixtisas qrupu üzrə ən yüksək nəticə göstərən abituriyentlərin adını açıqlayıb. Belə ki, imtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 394.0 bal toplayan Bakı şəhər Humanitar fənlər təmayüllü məktəb-liseyin məzunu Əliyev Turan Anar oğlu göstərib. O, imtahanın birinci mərhələsində 281.7 bal toplayıb. Hər iki mərhələnin cəminə görə II ixtisas qrupu üzrə ən yüksək nəticəni isə 693.9 bal toplayan Xırdalan şəhər 2 saylı orta məktəbin məzunu Novruzova Şəbnəm Ramin qızı göstərib. O, imtahanın birinci mərhələsində 300, ikinci mərhələsində isə 393.9 bal toplayıb.



■ **Qanunsuz parklanma yerlərini təşkil edənlər, yaxud həmin xidmətlə bağlı ödəniş tələb edənlər 2 min manatadək cərimə olunacaq. Bu, Milli Məclisin iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.**

Layihəyə əsasən, dövlət avtomobil yollarında səlahiyyəti olmayan şəxslər tərəfindən parklanma yerlərinin təşkili, parklanma xidmətinin göstərilməsi, yaxud həmin xidmətlə bağlı ödənişin tələb edilməsinə görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilərək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə ediləcək.

# Kreditlərlə bağlı yenilik

***Azərbaycanda fiziki şəxslərə istehlak kreditləri verilərkən, artıq həyat sığortası da təklif ediləcək. Yeni tələbə əsasən banklar müştərilərə həyat sığortasını könüllü şəkildə alması ilə bağlı ərizə formasını təqdim edəcək. Müştəri həyat sığortası üzrə lisenziyası olan sığortaçılardan birini sərbəst qaydada seçə biləcək. Başqa sözlə, bank müştərilərinə istehlak kreditlərini təqdim edərkən borcalanın həyatının ölüm və əmək qabiliyyətinin itirilməsi hallarından sığorta müqaviləsinin də bağlanmasını təklif edəcək. Bununla bağlı Mərkəzi Bank yeni qaydaları təsdiq edib.***



## Qərar

■ **“Azərbaycan Banklar Assosiasiyası” (ABA) İctimai Birliyinin prezidenti Zakir Nuriyev bildirib ki, istehlak krediti götürən fiziki şəxslərin həyatının sığortalanması zaminliyə tələbi xeyli azaldacaq:**

“Bu gün sizin həmkarlarınız da sizdən bu və yaxud digər borclarına zamin durmağı xahiş edirlər. Bundan sonra ən sadə yolla deyəcəksiniz ki, həyatını sığortalatdır, rahatlıqla sizə kredit verəcəklər. Bu, vətəndaşlarımızın münasibətlərinin inkişafına təkan verir. Zaminlik məsələsi insanlar arasında kifayət qədər problemli məsələdir. Həmin alətlə bu problemi də çözəcəyik. Bununla da insanlar arasında münasibətlərin daha sivil formada qurulmasına şərait yaranacaq”.

ABA sədri əlavə edib ki, hazırda verilən kreditlərin 95 faizdən çox hissəsi sığorta ilə təmin olunmayıb: “Mərkəzi Bank maliyyə sektorunda olduqca ciddi islahatlar həyata keçirir, sektor özünün yeni inkişaf mərhələsinə yaxınlaşır. Əsas məqsəd müştərilərə kredit alan zaman həyat sığortası məhsulunu da təklif etməkdir. Bu gün verilən kreditlərin 95 faizdən çox hissəsi sığorta ilə təmin olunmayıb. Üç ay ərzində bankalar sığorta şirkətləri ilə inteqrasiya həyata keçirəcəklər. Bu sığortalar kredit faizlərinin və kredit risklərinin aşağı düşməsinə səbəb olacaq”.

■ **İqtisadçı-ekspert Xalid Kərimli isə hesab edir ki, bu addım əlavə sığorta təminatıdır: ”İstehlak krediti götürən fiziki şəxslər üçün həyat sığortasının könüllü olması düzgün addımdır və daha yaxşıdır.** Vətəndaş özü qərar verməlidir ki, gələcək öhdəliyini sığortalamaq istəyir ya yox. Əgər istehlak krediti götürən vətəndaşlar üçün həyat sığortası məcburi olsaydı, bu, riskləri sığortalamaqla yanaşı, onların xərcini də artıracaqdı. Ona görə də istehlak krediti götürən vətəndaşlar üçün həyat sığortasının könüllü olmasının tərəfdarıyam”. Ekspertin sözlərinə görə, həyat sığortasının təklif edilməsinin kredit faizlərinə təsiri gözlənilmir: ”Kredit faizləri, əsasən, bazarda kreditə olan tələbat və kreditin maya dəyəri əsasında formalaşır”.

■ **Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov da deyir ki, bu qərar banklara və kredit faizlərinə heç bir təsir etməyəcək:** “Bank krediti verir, pulunu qazanır və kreditin sığortası faizlərə təsir göstərmir. Sığortanın olması bankın özü üçün yaxşıdır, çünki sabah vətəndaş ölübsə, əmək qabiliyyətini itiribsə, bank ölənin yaxınlarının arxasınca düşməyəcək və bu kredit ödənişini dərhal sığorta şirkətindən alacaq”. Ekspertin fikrincə, bu qərar sığorta təşkilatları üçün də yaxşı haldır: “Axı bu, əlavə biznesdir. Ona görə də düşünürəm ki, onlar bunu tətbiq edəcəklər”.

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirir ki, Mərkəzi Bankın həyat sığortası sahəsinə yeni tənzimləyici qaydalar gətirməsi müsbət haldır və bu, kredit risqlərini minimallaşdıracaq:**

“Yeni qaydaların əsas tələblərindən biri bank müştərilərinə istehlak kreditləri verilərkən həm də bankın borcalana sığorta müqaviləsinin də bağlanmasını təklif etməsidir. Sığorta müqaviləsinin olmaması üzündən müştəri dünyasını dəyişən zaman krediti onun vərəsəsi - ailə üzvləri qaytarmaq məcburiyyətində qalırdı. Bu da əksər hallarda ailə üzvləri üçün əlavə maliyyə yükünə çevrildiyindən sosial baxımdan arzulanan deyildi”. Deputatın fikrincə, yeni qaydalar əlilliyi olan şəxslərin kreditlərə çıxış imkanlarını artıracaq: “Belə ki, əlilliyə və ya mövcud əllilik dərəcəsinin digər yuxarı dərəcə ilə əvəzlənməsinə səbəb olan sığorta hadisəsi zamanı borcalanın kredit müqaviləsi üzrə qalıq borc məbləğinin həcmi nəzərə alınmaqla, onun sağlamlıq imkanlarının pozulma faizinə uyğun həcmdə ödəniş verilməsi nəzərdə tutulub”. V.Bayramovun sözlərinə görə, ən mühüm məqamlardan biri də risklərin azaldılması nəticəsində kredit faizlərinin aşağı düşməsinin mümkünlüyüdür: “Risklərin sığortalanması istehlak kreditləri üzrə faizləri azalda bilər”.

“

*Zaminlik məsələsi insanlar arasında kifayət qədər problemli məsələdir*

*İstehlak krediti götürən fiziki şəxslər üçün həyat sığortasının könüllü olması düzgün addımdır və daha yaxşıdır*

*Bu qərar banklara və kredit faizlərinə heç bir təsir etməyəcək*

*Sığorta müqaviləsinin olmaması üzündən müştəri dünyasını dəyişən zaman krediti onun vərəsəsi - ailə üzvləri qaytarmaq məcburiyyətində qalırdı*

✍ ***Sevinc***



# “Bakcell”in dəstəyi ilə “Google AI Hackathon” baş tutub

Ⓡ

**Bakcell-in rəsmi sponsorluğu və Tech Academy-nin təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə “Google AI Hackathon” baş tutub.**

IDDA-nın ev sahibliyi etdiyi innovasiya və yüksək texnologiyaları təmsil edən tədbir, yaradıcı beyinləri, süni intellekt həvəskarlarını, developer və proqramçıları bir araya toplayıb. Google-ın möhtəşəm Sİ platforması olan ”Gemini”dən istifadə edərək yenilikçi həllər tapmağa çalışan 21 komanda 2 gün ərzində qalibiyyət üçün yarışıb.

”Bu möhtəşəm tədbirin Bakıda keçirilməsi Azərbaycanın texnologiya sahəsindəki liderliyini və innovasiyaya olan dəstəyimizi təmsil edir. Komandaların nümayiş etdirdikləri yaradıcılıq və istedad həqiqətən ilhamverici idi. Bugünkü tədbiri dəstəklədiyimiz kimi, Azərbaycanın parlaq gənclərinin də hər zaman yanındayıq.” deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib. “Bakcell” əməkdaşının da təmsil etdiyi münsiflər heyətinin qərarına əsasən 2-ci günün sonunda hakatonun qalibləri təyin olunub. “CODAGE” adlı komanda 1-ciliyə layiq görülərək 3000 AZN, 2-ci yeri tutan “JOSUA VERSE” komandası 2000 AZN, “LİBRA VƏ SPARK” komandası isə 3-cülüklə 1000 AZN dəyərində pul mükafatı qazanıblar.

# Gümüş kəskin bahalaşır

***Dünya bazarında gümüşün kəskin bahalaşacağı proqnozlaşdırılır. Belə ki, UBS gümüş ilə bağlı proqnozlarını yüksəldib.UBS strateqləri gümüşün yaxın perspektivdə qızılı üstələyəcəyini gözləyərək, gümüş qiymətləri ilə bağlı proqnozlarını artırıblar. Başqa sözlə, gümüşün 2024-cü ilin sonuna olan qiymət hədəfini 20 faiz artıraraq 36 dollara çatdıran bank, orta qiymət gözləntisini isə 14 faiz artıraraq 30,5 dollara çatdırıb. Starteqlərin sozlərinə görə, gümüş ilə bağlı yeni qiymət gözləntiləri qızıla nisbətən daha yüksək performansı əks etdirir.***



Yeri gəlmişkən, Avropanın ən böyük ikinci bankı olan “Commerzbank” da 2024-cü ilin sonu və sonrakı dövr üçün qiymətli metallar bazarı ilə bağlı fikirlər təqdim edərək, gümüş və qızıl qiymətləri ilə bağlı proqnozlarına yeniləyib. “Commerzbank”ın proqnozuna görə gümüş qiymətləri yüksələ bilər . Qızıla gəlincə, bank 2024-cü ilin ikinci yarısında qızıl qiymətlərində azalma gözləyir. Bank həm 2024-cü ilin sonu, həm də 2025-ci il üçün gümüş qiymətləri ilə bağlı proqnozlarını artırıb. Yenidən işlənmiş proqnoz, gümüşün unsiyasının qiymətini 2024-cü ilin sonuna qədər əvvəlki 29 dollar proqnozunu 30 dollar səviyyəsində qaldırıb. “Commerzbank” 2025-ci ilin sonuna qədər gümüşün əvvəlki 31 dollar proqnozu ilə müqayisədə 32 dollara çatacağını gözləyir. 2024-cü ilin ikinci yarısında qızılın unsiya qiymətinin 2300 dollara düşəcəyini proqnozlaşdırır.

Qeyd edək ki, gümüşdə bahalaşma 2024-cü ilin martından müşahidə edilir. Ekspertlər gümüşün bahalaşmasının əsas səbəbi kimi qızılın dəyərinin artmasını göstərirlər.

■ **Məsələni qəzetimizə şərh edən iqtisadçı-alim Fuad İbrahimov deyir ki, qızıl bahalaşdıqda digər qiymətli metallar da bahalaşır:**

“Son 10 ilin müşahidələri göstərir ki, dünya bazarında əlvan metallar, xüsusilə də qızıl bahlaşmaqda davam edir. Qızılın dəyəri daha çox artdıqda yığım vasitəsi kimi nisbətən ucuz dəyərli metallara da maraq artır. Yəni, qızılla bərabər digər metallar da bahalaşır. Hazırda dünyada belə bir tendensiya yaranıb ki, bir çox ölkələr ehtiyatlarını qızıl formatında saxlamağa üstünlük verir. Məsələn, təkcə qardaş Türkiyə son 2 ildə bu istiqamətdə ehtiyatlarını bir neçə dəfə artırıb. Bundan başqa, Hindistan, Çin, Rusiyada bu istiqamətdə hərəkətlilik müşahidə olunur. Daha çox dollarlaşmadan alternativ mənbələrə keçmək nöqteyi-nəzərindən qızıla üstünlük verilir. Bu fonda qızıl bahalaşmaqla öz arxasınca gümüşü də dartmış olur. Çox güman ki, tendensiya hələlik bu şəkildə davam edəcək”.

“

*Qızılın dəyəri daha çox artdıqda yığım vasitəsi kimi nisbətən ucuz dəyərli metallara da maraq artır*

✍ ***Müşfiq***

Cəmiyyət

***Mənzil satışı zamanı fırıldaqçılıq hallarına son qoyula bilər. Belə ki, mənzillərin etibarlı satışının təşkili və mənzil əldə etmiş şəxslərin hüquqlarının qorunması məqsədilə Mənzil Məcəlləsində dəyişiklik edilməsi gözlənilir. Bu barədə qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi 1 iyul 2024-cü il tarixinə nəzərdə tutulub. Qanun layihəsi ilə bağlı icraçı qurumlar İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Ədliyyə Nazirliyidir.***

# Mənzil alarkən daha aldadılmayacağıq?





**Elnur Azadov,**
daşınmaz əmlak üzrə ekspert

“

*Bu məsələ qiymətlərə təsir etmir, sadəcə proseslər asanlaşır və hüquqi təminat möhkəmlənir*

*Çıxarışlı və çıxarışsız mənzillərlə bağlı hüququ baza olmalıdır*

Eyni zamanda daşınmaz əmlakla bağlı dövlət xidmətləri üzrə mobil tətbiqin istifadəyə verilməsi, daşınmaz əmlaka dair texniki sənədlərin (torpaq sahəsinin planı və ölçüsü, texniki pasport) tam elektronlaşdırılması nəzərdə tutulub. Qeyd edək ki, daşınmaz əmlakın dövlət reyestrinin elektron aparılması qaydalarının yeni sistemə uyğun təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi, bələdiyyələr tərəfindən 01.12.2007-ci il tarixinədək fiziki və hüquqi şəxslərə ayrılmış torpaq sahələri ilə bağlı müvafiq torpaqayırma sənədlərinin yeni sistemdə yerləşdirilməsi məqsədilə onların məlumat bazasının “Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı” informasiya sisteminə inteqrasiyanın təmin edilməsinə dair normativ hüquqi akt layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi 1 iyul 2024-cü il tarixinə nəzərdə tutulub.

Xatırladaq ki, əmlakın qeydiyyatı və icarəsi işçi qrupuna rəhbərliyi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini Rüstəm Şahbazov həyata keçirir.

■ **Məsələ ilə bağlı daşınmaz əmlak üzrə ekspert Elnur Azadov bildirib ki, əmlak müəsissələrinin dövlət xidməti tərəfdən sənədləşməsi, elektronlaşması son illər gündəmdədir:** ”Bir neçə il qabaq adi kağızda olan çıxarışlar elektronlaşdı. Yəni ki, istehlakçı sənədlərini dünyanın istənilən yerindən elektron qaydada çıxara bilir. Bu sahədə işlər təkmilləşir. Bu məsələ qiymətlərə təsir etmir, sadəcə proseslər asanlaşır və hüquqi təminat möhkəmlənir.

Bu, həm də gələcəkdə dolayı yolla aparılan hər hansı bir əməliyyatın qarşısını alacaq. Eyni zamanda, əgər sistem yeni tikilən binalara da inteqrasiya olsa, vətəndaşların riskləri sıfıra enəcək”.

■ **Daşınmaz əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə qeyd edib ki, belə bir qanun layihəsinin hazırlanmasına ciddi ehtiyac var:** “Zamanında bəzi fırıldaqçı tikinti şirkətləri tərəfindən yüzlərlə zərər çəkmiş şəxs olub. Bir mənzil şirkət tərəfindən 2-3 nəfərə satılıb. Bu zaman isə MTK rəhbəri həbs olunub. Əksər hallarda da vətəndaşa dəymiş zərər ödənilə bilməyib. Yaxın vaxtlarda mediada yayılmışdı ki, saxta yol ilə xarici ölkələrdə etibarnamə əldə edərək kirayə götürdükləri mənzilləri başqa şəxslərə satıblar. Bəzən isə vətəndaşlar mənzil alır və daha sonra müəyyən olur ki, bu torpaqda sürüşmə var. Bunlara nəzərən daşınmaz əmlak sahəsində fırıldaqçılığın qarşısını almaq üçün mütləq şəkildə belə qaydanın əlavə olunması çox vacibdir. Hazırda bu problemlərin sayı yüzlərlədirsə, gələcəkdə daha da çox olacaq. Yeni qanun forması hazırlanmalı və yeni sənədlər tələb olunmalıdır. Çıxarışlı və çıxarışsız mənzillərlə bağlı hüququ baza olmalıdır”.



**Elnur Fərzəliyev,**
Daşınmaz əmlak məsələləri üzrə ekspert

✍ ***Rəna***

# "Əmək pensiyaları haqqında" qanun dəyişdirilir

***"Əmək pensiyaları haqqında" qanuna dəyişikliklər edilməsi gözlənilir. Artıq bu barədə qanun layihəsi Milli Məclisdə üçüncü oxunuşda təsdiq edilib. Qeyd edək ki, sözügedən layihə qulluq stajına görə əmək pensiyalarına əlavələrin hesablanması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini özündə ehtiva edir. "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliklərlə bağlı qanun layihəsi sosial sığorta prinsiplərinin dərinləşməsi, sosial ədalətin təmin olunması, pensiya təminatının avtomatlaşdırılması və sosial müdafiə sisteminin dayanıqlılığının artmasına xidmət edəcək.***



Qanun layihəsinə əsasən, əmək pensiyasının avtomatlaşdırılmış qaydada bir növdən başqa növə keçirilməsi əmək pensiyaçısının daha yüksək məbləğdə hesablanmış digər növ əmək pensiyasına hüququ yarandıqda həyata keçirilir. Digər dəyişikliklə, hərbi xidmətdən yaşa görə pensiyaya buraxılmış vətəndaşların əmək pensiyaları ilə bağlı dəyişikliklər nəzərdə tutulur. Bu şəxslərin əmək pensiyası buraxıldığı günə 30 təqvim ili hesablanmaqla veriləcək. Dəyişikliklə hərbi xidmətdən yaşa görə pensiyaya buraxılmış, buraxıldığı günə 30 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 15 ilini hərbi xidmətdə keçirmiş şəxslərə müvafiq təminat xərcliyinin 65 faizi və 30 ildən yuxarı ümumi iş stajının hər ili (il tam olmadıqda isə natamam ildəki iş stajı aylarının sayına mütənasib olaraq hesablanmaqla) üçün müvafiq təminat xərcliyinin 1 faizi miqdarında əlavə olunmaqla hesablanır. Qeyd edək ki, yeni qanun layihəsinə əsasən, 30 təqvim ilindən əvvəl "buraxıldığı günə" sözü əlavə olunur.

Qanun layihəsinə görə, Azərbaycan Milli Məclisinin və Naxçıvan Ali Məclisinin fəaliyyətdə olan deputatlarının pensiyasına əlavələr pensiya təyinatı tarixinədək əməkhaqqındakı sonrakı artımlar da nəzərə alınmaqla, əməkhaqqının orta aylıq məbləğinin 80 faizi miqdarı ilə təyin edilən əmək pensiyasının məbləği arasındakı fərq qədər hesablanacaq. Bu dəyişiklik, eyni zamanda, Milli Məclis sədrinin, onun birinci müavininin və digər müavinlərinin, komissiya sədrinin və komissiya sədrinin müavininin əmək pensiyasının hesablanmasına da şamil edilir. Həmçinin Naxçıvan Ali Məclisinin sədrinin, müavinlərinin əmək pensiyasının hesablanmasına da şamil olunacaq.

Qeyd edək ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında deputat mandatından məhrum edilmiş və Azərbaycan Respublikası Milli Məclisinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında üzrsüz səbəbdən iştirak etmədiyinə görə deputat səlahiyyətlərini itirmiş deputatlar istisnadır. Qanun layihəsi qəbul olunduğu təqdirdə 2024-cü il iyulun 1-dən qüvvəyə minəcək.

■ **Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş layihə pensiya təminatı sahəsində sosial sığorta prinsiplərinin gücləndirilməsi, sosial ədalətin qorunması, pensiya təyinatının avtomatlaşdırılması və proaktiv təyinatların dairəsinin genişləndirilməsi istiqamətlərində hüquqi bazanın möhkəmləndirilməsi məqsədi ilə hazırlanıb.** O qeyd edib ki, qanunun 5 maddəsinə 17 dəyişiklik və 1 keçid müddəası təklif edilir: "Dəyişikliklər mahiyyət etibarilə 4 istiqaməti əhatə edir. Bunlar dəqiqləşdirici xarakterli texniki dəyişikliklər, sosial sığorta prinsipinin daha da gücləndirilməsinə və təkmilləşdirilməsinə xidmət edən dəyişikliklər, 1-ci qrup hərbi xidmət əlillərinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəlmiş dəyişikliklər və elektron pensiya təminatının və proaktiv təyinatların çərçivəsinin genişləndirilməsi məqsədi ilə təklif edilən dəyişikliklərdir".

Komitə sədri bildirib ki, sənədə edilən digər dəyişikliyin məqsədi şəxsin hərbi xidmətdə qalmasını təşviq etmək, eləcə də daha çox xidmət edən hərbi qulluqçu ilə daha az xidmət edən və pensiya hüququ əldə edən hərbi qulluqçuların pensiya məbləğləri arasında ədaləti qorumaqdır.

> *"Sənədə edilən digər dəyişikliyin məqsədi şəxsin hərbi xidmətdə qalmasını təşviq etmək, eləcə də daha çox xidmət edən hərbi qulluqçu ilə daha az xidmət edən və pensiya hüququ əldə edən hərbi qulluqçuların pensiya məbləğləri arasında ədaləti qorumaqdır*

O vurğulayıb ki, sənədə əsasən, bəzi uyğunsuzluqların aradan qaldırılması üçün qanunun 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrində nəzərdə tutulmuş şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavələr həmin şəxslərin orta aylıq əməkhaqları, son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti yolu ilə müəyyən edilməsi təklif olunur. Dəyişikliyə görə, həmin kateqoriyadan olan şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavənin müəyyən edilməsi üçün orta aylıq əməkhaqqının hesablanmasında vahid yanaşma tətbiq olunacaq.

■ **Milli Məclisin deputatı Vüqar Bayramov isə deyib ki, "Əmək pensiyaları haqqında" qanuna edilən dəyişikliyə əsasən, vətəndaşlarımızın bir neçə pensiya hüququ yaranacaq: "Vətəndaşların xüsusi pensiya hüququ sosial kapitala görə yaranır.** Belə olan halda, onların pensiyası proaktiv olaraq müəyyən ediləcək,



yəni elektron məlumatlar üzərindən müəyyənləşdiriləcək. Bu isə prosedurlardan keçmədən, qısa zamanda pensiya təminatına imkan verəcək. Qanuna dəyişikliyin ikinci mühüm əhəmiyyəti ondan ibarətdir ki, prosedurlar azalır, elektronlaşma artır. Bu da imkan verəcək ki, həm pensiya təyinatında şəffaflığı artırmaq mümkün olsun, həm də elektron prosesdurlara əməl olunduğu üçün daha qısa zamanda vətəndaşın pensiya təminatı həyata keçirilsin. Yəni pensiya təyinatı üçün tələb olunan günlər və xərclər azalacaq. Vətəndaşlarımızın əksəriyyəti elektron sistem üzərindən pensiya təminatı əldə edə biləcəklər".

Onun sözlərinə görə, yeni dəyişikliklərlə bağlı ən çox ünvanlanan suallardan biri də onun hərbiçilərin pensiyalarına necə təsir etməsi ilə bağlıdır: "Belə ki, yeni dəyişikliklərdə mühüm məqamlardan biri də keçmiş hərbi qulluqçularla bağlıdır.

Qanuna edilən dəyişikliyin bir istiqaməti də 81-100 faiz sağlamlıq imkanlarını itirən hərbi xidmət dövründə

> *"Qanuna edilən dəyişikliyin bir istiqaməti də 81-100 faiz sağlamlıq imkanlarını itirən hərbi xidmət dövründə əlilliyi olan keçmiş hərbi qulluqçularla bağlıdır*

əlilliyi olan keçmiş hərbi qulluqçularla bağlıdır. Belə ki, hazırda onlara təminat xərclərinin 60 faizi məbləğində pensiya təyin olunur. Yeni dəyişiklik həmin faizin dəyişdirilməsini və 10 faiz artırılmasını nəzərdə tutur. İndi bu həmin vətəndaşlar təminat xərclərinin 60 deyil, 70 faiz həcmində pensiya ala biləcəklər. Bu isə onların pensiya məbləğlərinin artmasına gətirib çıxaracaq".

*Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin İSTEFASI



Belçikanın Baş naziri Aleksander De Kroo istefa verib. De Kroo "Open VLD" partiyasının ölkəsində milli parlament seçkilərində və Avropa Parlamentinə keçirilən seçkilərdə məğlub olmasından sonra bu qərara gəlib. "Biz bu seçkilərdə məğlub olduq. Mən bu kampaniyanın üzü idim. Bu bizim ümid etdiyimiz nəticə olmadı. Bütün məsuliyyəti üzərimə götürürəm", - deyə o bildirib.

### Həftənin TƏHDİDİ



Xərçəngdən əziyyət çəkən Böyük Britaniya Kralı III Çarlz kiçik oğlu şahzadə Harridən kral ailəsinin sirlərini açıqlamağı dayandırmağı xahiş edib. Bunu "Daily Mirror"a eksklüziv müsahibəsində kralın bioqrafı Tom Quinn deyib. "Harridən birbaşa ailəsi və ya qardaşı haqqında heç nə deməməyi və ya yazmamağı xahiş etdi, nəticələri ilə hədələdi. Və hamı bilir ki, monarx sizdən nəsə etməyi tələb edəndə və siz ona əməl etməsəniz, bunun nəticələri olacaq", - Quin bildirib.

### Həftənin QƏZASI



Göyərtəsində Malavinin vitse-prezidenti Saulos Çiliman və daha 9 nəfərin olduğu təyyarə radarlardan itib. Təyyarənin meşəlik ərazidə qəzaya uğradığı ehtimal edilirdi. Xilasedicilər sözügedən təyyarənin qalıqlarını aşkar edib. Bildirilir ki, təyyarənin göyərtəsində olan bütün şəxslər həlak olub.

### Həftənin MÜƏMMASI



"Ermənistanın Baş naziri Nikol Paşinyanın gündəliyində Bakıya səfər planlaşdırılmayıb". Bunu Paşinyanın mətbuat katibi Nazeli Baqdasaryan açıqlayıb. Baqdasaryan bununla da Paşinyanın noyabrda Bakıda keçiriləcək COP29 sammitində iştirakı ilə bağlı son dövrlər yayılan məlumatları təkzib edib.

### Həftənin ARZUSU



Türkiyəli məşhur aktyor Oktay Kaynarca azərbaycanlıların ona olan sevgisindən danışıb. "Biz-bizə" verilişində qonaq olan sənətçi ölkəmizdə bu qədər pərəstişkarının olmasına təəccübləndiyini bildirib. "İnstaqramda məni ən çox izləyən şəhərlər arasında Bakı üçüncü sıradadır. Çox qəribə bir şeydir. Artıq mən də alışmışam. Axırda dedim ki, gedib Azərbaycanda deputat olacağam".

### Həftənin REKORDU



Portuqaliyalı ulduz Kriştiano Ronaldo yeni rekorda imza atıb. Beynəlxalq Futbol Tarixi və Statistikası Federasiyasının hesablamalarına görə, o, ən çox oyun keçirən futbolçu rekordu ilə futbol tarixinə düşüb. Belə ki, Ronaldo 1226-cı dəfə meydana çıxmaqla, hesabında 1225 oyun olan braziliyalı qapıçı Rojerio Senini arxada qoyub.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



Ermənistanda aksiyaçıların həbsi anı

## Mənzil alarkən daha aldadılmayacağıq?

**Elnur Azadov,**
daşınmaz əmlak üzrə ekspert

Bu məsələ qiymətlərə təsir etmir, sadəcə proseslər asanlaşır və hüquqi təminat möhkəmlənir.

Səh. 7

## STATİSTİKA



■ **Cari ilin may ayında respublikada gündəlik neft (kondensatla birlikdə) hasilatı 76 775 ton olub. Bunun 62 118 tonunu xam neft, 14 657 tonunu kondensat təşkil edib.**

Qeyd edək ki, "OPEC plus" ölkələri nazirlərinin 36-cı iclasında əldə edilmiş razılaşmaya görə, cari il üçün Azərbaycanın hasilat kvotası gündəlik 551 min barrel (74 259 ton) təşkil edir.



Səh. 7

## Gümüş kəskin bahalaşır